**Azərbaycan qtisadiyyatı: qeyri-neft sektoru**



Bax 2

**Milli Məclisin növbəti plenar iclası keçirilib**



Bax 5

**Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti**



Bax 8




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 052 (6017) 18 mart 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Hökumət sahibkarlara dəstək üçün təkliflər hazırlayır

***A**zərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə martın 17-də Baş Nazir Əli Əsədovun yanında iqtisadi məsələləri müzakirə etmək üçün hökumətin iclası keçirilib.*

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda koronavirus pandemiyasının...



Bax 2



Bax 2

## İlham Əliyev: "Azərbaycanda islahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır"

## Parisdə evdən bayıra çıxanlar cərimələnəcək

Bax 16

***P**arisdə hər hansı bir iş üçün evdən çıxan şəxslər (piyada və ya avtomobillə) polisə rəsmi arayış təqdim etməlidirlər. Yalnız xüsusi icazə sənədləri olan şəxslər şəhərə çıxa bilərlər. AZƏRTAC xəbər verir ki, bu sözləri Fransanın Daxili İşlər naziri Kristof Kastaner ölkə prezidentinin çıxışından sonra ölkədə tətbiq olunacaq yeni qaydaları açıqlayarkən söyləyib.*

Qeyd edib ki, koronavirus pandemiyasına qarşı ölkədə xüsusi nəzarət sistemi həyata keçiriləcək və bu məqsədlə...



## Operativ Qərargah: "Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna giriş məhdudlaşdırılır"

***K**oronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə bütün səviyyələrdə hərəkətin məhdudlaşdırılması və sosial təcridin gücləndirilməsi tədbirləri davam etdirilir.*



Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla...

Bax 5

## Azərbaycan Ordusunda görülən işlər daim Ali Baş Komandanın diqqət mərkəzindədir

***A**zərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev və nazirliyin digər rəhbər...*



Bax 4

**"Serbiya dövləti beynəlxalq siyasi dairələrdəki nüfuzuna xələl gətirməməlidir"**



Bax 6

**Ermənilər can, Paşinyan da "piy" hayında**



Bax 12

**Sevinc Osmanqızı - Əli Kərimlinin "kəpənəyi"**



Bax 13

# Azərbaycan iqtisadiyyatı: qeyri-neft sektoru

*Prezident İlham Əliyev: “Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq”*



***Son illər respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə, bütün problemlərin həllində iqtisadi amilin ön plana çəkilməsidir. Dövlət proqramlarının, fərman və sərəncamların yüksək səviyyədə icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin edib, tərəqqi prosesində qeyri-neft sektorunun payı və rolunu davamlı şəkildə artırıb.***

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında qeyri-neft sektorunun inkişafı məsələsinə xüsusi aydınlıq gətirib. Məsələn, dövlətimizin başçısı son illərdə respublikada turizm sektorunun inkişaf etdirilməsinə ciddi diqqət yetirildiyini dəfələrlə vurğulayıb. Bu, təsadüfi deyil. Çünki Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Bu, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”ndə də öz əksini tapıb. Ötən müddətdə bu sahəyə xüsusi diqqət və qayğı göstərilib, müxtəlif layihələr həyata keçirilib. Bunun nəticəsində, respublikada turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada turizm istiqaməti kimi tanınmağa başlayıb. Beynəlxalq turizm bazarına inteqrasiya isə ilbeil, daha geniş şəkildə aparılır.

“Valyuta gətirən sahələrdən biri də turizmdir” - deyən ölkə Prezidenti İlham Əliyev bu günün reallıqlarını əsas tutaraq xalqımızın zəngin irsinin dünyada təbliği və tanıdılması istiqamətində sözügedən sahəyə daha çox üstünlük verilməsinin, xüsusi diqqət və qayğı göstərilməsinin vacibliyini qeyd edərək vurğulayıb: “Onu da deməliyəm ki, son vaxtlar bizə çoxlu turistlər gəlir. Son üç ildə turizm çox inkişaf edib. Bütün bunlar bizim həyata keçirdiyimiz fəaliyyətin nəticəsidir. Azərbaycan sabit ölkədir, Azərbaycan xalqı öz qonaqpərvərliyi ilə məşhurdur, ölkəmizdə işləmək, istirahət etmək üçün hər cür şərait yaradılıb. Düşünürəm ki, əlbəttə, gələcəkdə bu cür tədbirlər daha çox olacaq. Biz öz tərəfimizdən həmişə çalışırıq ki, sıx əməkdaşlıq etdiyimiz ölkələrin öz arasında da yaxşı işgüzar münasibətlər olsun. Biz bu regionda yaşayırıq. Bu regionda baş verən bütün hadisələr, istər-istəməz, bizə müəyyən dərəcədə təsir edir. Buna görə də, biz çalışmalıyıq ki, özümüz üçün riskləri beynəlxalq əməkdaşlıq vasitəsilə minimuma endirək. Əgər biz dünyanın aparıcı ölkələri arasında gərginliyin azaldılması işinə hər hansı kiçik töhfə verə biliriksə, əlbəttə, gələcəkdə də bunu edəcəyik”.

### Qeyri-neft sektorunun inkişafı strategiyası neft asılılığı minimuma endirir

Qeyri-neft sektorunun inkişafı strategiyasının əsas məqsədi ölkənin neft asılılığını minimuma endirməkdir. Hazırda ölkə üzrə ixracdan gələn gəlirlərin çoxu enerji daşıyıcılarının satışından əldə edilir. Dünya bazarında isə neftin qiyməti sabit olmur. Yüksək qiymətə satıldığı kimi, qəfil də ucuzlaşır ki, bu da, maliyyə sabitliyinə ciddi təsir göstərir. Məhz bu səbəbdən, dövlət başçısının sənayeləşmə siyasəti xeyli vaxtdır ki, ölkənin iqtisadi inkişafının əsas istiqamətlərindən biri elan olunub və sözügedən istiqamətdə mühüm tədbirlərin icrasına başlanılıb. Nəticədə, artıq bir çox qeyri-neft sənaye məhsulları ölkəmizdə istehsal edilir və belə məhsulların xaricdən idxalı, demək olar ki, dayandırılıb. Burada müsbət cəhət isə odur ki, bu cür məhsulların idxalının azalması ilə yanaşı, onun ixracı da artıb.

Azərbaycanda qeyri-neft sektorunun inkişafında sənaye parkları və məhəllələrinin yaradılmasının önəmli rolu var. Prezident İlham Əliyev çıxışlarında da qeyri-neft sektorunun inkişafına mühüm əhəmiyyət verdiyini vurğulayaraq deyib: “Sənaye parklarında rezidentlərin sayı 50-yə yaxındır. Sənaye parklarının yaradılması da öz səmərəliliyini göstərmişdir. Əgər biz bu parkları yaratmasaydıq, orada investorlara yaxşı güzəştli şərtlər yaratmasaydıq, indi 50-yə yaxın rezident olmazdı. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır”.

### “Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı bizim əsas prioritetimizdir”

Azərbaycan Prezidenti İlham Əliyev “Əsrin müqaviləsi”nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə də qeyri-neft sektorunu inkişaf etdirilməsini deyib: “Biz əlbəttə ki, bu gün iqtisadi sahədə şaxələndirmə yolunu seçmişik. Yəni neftdən asılılığı aşağı salmağa çalışırıq, qeyri-neft sektorunu inkişaf etdiririk. Ancaq bilməliyik ki, bu gün və sabah ölkəmizin aparıcı sektoru neft-qaz sektorudur. Bu gün və sabah ölkəmizin uğurlu inkişafı üçün bizim qəhrəman neftçilərimizin əməyi əvəzolunmazdır. Məhz bizim neftçilərimiz bu gün Azərbaycanın qüdrətini və inkişafını təmin edirlər. Ona görə neft-qaz sektorunun bundan sonra da uğurla inkişafı prioritet məsələlərdən biridir. Mən yenə də bunu ona görə deyirəm ki, biz iqtisadi inkişafla bağlı apardığımız siyasəti, təbii olaraq, qeyri-neft sektoru üzərində qururuq. Ancaq bilməliyik ki, əgər neft sektoru inkişaf etməsə, bizim qeyri-neft sektorumuz bu gün ölkəmizin tələbatını ödəyə bilməz. “Əsrin kontraktı”nın imzalanmasından sonra xarici şirkətlər anladılar ki, Azərbaycana sərmayə qoymaq olar və sərmayə qoymaq lazımdır. Yaxşı xatırlayıram, bir çox xarici şirkət Azərbaycana üz tutub, təkliflərini irəli sürüb və bizimlə əməkdaşlıq etmək haqqında öz niyyətini ifadə etmişdir. Beləliklə, “Əsrin kontraktı”ndan sonra onlarla kontrakt, 40-a yaxın pay bölgüsü sazişi imzalandı. Düzdür, onların bir hissəsinə xitam verildi. Çünki orada kəşfiyyat işlərində lazımi həcmdə neft-qaz resursları tapılmadı. Ancaq digər layihələr bu gün qüvvədədir və bizim qüdrətimizi daha da artırır. Xüsusilə, “Şahdəniz” qaz-kondensat yatağının işlənilməsini qeyd etmək istərdim. “Şahdəniz” üzrə kontrakt “Əsrin kontraktı”ndan iki il sonra - 1996-cı ildə imzalandı. O vaxt dünya enerji aləmində qaz yataqları o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Bu gün təbii qaz enerji təhlükəsizliyi üçün həlledici məsələdir”.

Bu faktoru da vurğulamaq yerinə düşər ki, hələ bir neçə il öncə, dünyada qlobal maliyyə böhranı yarandığı, eləcə də, neftin qiymətinin kəskin ucuzlaşdığı dövrlərdə belə ölkəmizin iqtisadi inkişafı öz davamlılığını və stabilliyini qoruya bilmişdisə, bu ağır sınaqlardan minimal ziyanlara çıxa bilmişdisə, bu gün də bu siyasət davam etdiriləcək. Bu gün Azərbaycan dövləti bir daha öz inkişafı və tərəqqisi ilə sübut edir ki, ölkəmizin təməlində bu reallıq dayanır. Prezident İlham Əliyevin yeni dövrə uyğunlaşdırılmış şəkildə davam etdirdiyi və strateji əhəmiyyətə malik iqtisadi siyasət kursunu uğurla davam etdirilməsi Azərbaycanın çoxşaxəli və davamlı inkişafının əsas təməlidir. Artıq bir neçə ildir ki, ölkə Prezidenti bütün sahələrlə yanaşı, aqrar və s. iqtisadi sahələrin inkişafı istiqamətində mühüm tədbirlər görür, qanunvericiliyimizdə dəyişikliklər olunur və yerli fermerlərə, sahibkarlara yaxından köməkliklər göstərilir. Həyata keçirilən hər bir iş, reallaşdırılan hər bir layihə xalqın sosial-iqtisadi rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Bütün bunlar sabitliyin, iqtisadi inkişafın məntiqi nəticəsidir və dövlət yalnız xalqına xidmət göstərir. Bu faktoru dövlət başçısı çıxışlarında da dönə-dönə vurğulayıb.

Göründüyü kimi, deyilən faktlar, göstərilən yüksək statistik rəqəmlər onu bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar onu fikirləşməyə əsas verir ki, bir neçə ildən sonra Azərbaycan iqtisadiyyatı neft sektorundan asılılığı mimimum dərəcədə olan dövlətlər sırasında olacaqdır.

Bəli, hal-hazırda ümumi iqtisadiyyatda müəyyən geriləmələr var, ancaq bu, ilk növbədə, neftin dünya bazarlarındakı qiymətlərinin kəskin düşməsi və onun hasilatının azalması ilə bağlı olan bir məsələdir. Cari ilin birinci yarısında iqtisadiyyatın qeyri-neft sektorunun əksər aparıcı sahələrində isə nəticələr pozitivdir. Əgər keçən illə müqayisədə qeyri-neft sənayesi, kənd təsərrüfatı istehsalı, nəqliyyat, informasiya və rabitə xidmətləri, pərakəndə ticarət və s. sahələr üzrə ciddi irəliləyişlər ola bilibsə, bu, o deməkdir ki, dövlətimiz postneft dövrünün nəbzini vaxtında və çox dəqiq tuta bilib və onun bu dövrdə apardığı islahatlar mövcud vəziyyətə tam adekvat islahatlardır. Bunun belə olduğunu və Azərbaycan hökumətinin postneft dövründə apardığı iqtisadi islahatların əhəmiyyətini dünyanın iki ən böyük maliyyə institutunun - Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının rəhbərlikləri də artıq rəsmi bəyan ediblər və onlar tərəfindən də təsdiq edilmişdir ki, davamlı surətdə həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində, qısa müddət ərzində, neft sənayesindən asılılıq minimuma enəcəkdir. Hal-hazırda Azərbaycan bu yolda daha inamla irəliləmək və postneft dövrünün islahatlarını maksimum qısa zaman kəsiyində başa vurmağı hədəfləyir. Ölkə Prezidentinin qeyd etdiyi kimi, islahatların əsas hədəfi bir neçə il ərzində dövlət büdcəmizin gəlirlərini qeyri-neft sektoru hesabına təmin etmək olmalıdır.

Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi prioritet olmaqla yanaşı, eyni zamanda, ölkə iqtisadiyyatının daha dayanıqlı inkişafı baxımından vacibdir. Çünki biz neftdən asılılığı aradan qaldırdıqca, daha dayanıqlı iqtisadi inkişafa və artıma nail ola bilərik. Prezident İlham Əliyevin dediyi kimi: “Azərbaycanda qeyri-neft sektorunda bu günə qədər islahatlar aparılıb və bu, gələcəkdə də davam etdiriləcək”.

***RƏFİQƏ KAMALQIZI***

# İlham Əliyev: “Azərbaycanda islahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır”

***“Azərbaycanda islahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. Son müddət ərzində Prezident Administrasiyası demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır.”***



Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında vurğulayıb.

Nazirlər Kabinetinin yeni tərkibdə formalaşdığını qeyd edən dövlətimizin başçısı deyib: “Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq. Bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərə bütün xalqımızı hiddətləndirir. Bundan sonra da təmizləmə işləri aparılacaqdır, həm mərkəzi, həm də yerli icra orqanlarında, bütün dövlət qurumlarında. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə dövlət işində işləmək istəyirsə, onun niyyəti də, əməlləri də təmiz olmalıdır. Əgər hansısa bir adam özündə bu xüsusiyyətləri görmürsə, o, dövlət işindən getsin, sabah bədbəxt olmasın.

Ona görə islahatların dərinləşməsi, əlbəttə ki, parlamentdən yan keçə bilməzdi. Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir. Deputatlar qarşısında böyük vəzifələr durur, ilk növbədə, qanunvericilik sahəsində. Çünki parlamentin əsas işi qanunvericilikdir. Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin. Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır. İcra strukturlarına mənim tərəfimdən göstəriş verilmişdir ki, qəbul edilmiş qanunların icrası nə yerdədir. Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı. Hesab edirəm ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar. Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir”.

# Rafael Məlik oğlu Dadaşov



***Azərbaycan mədəni ictimaiyyətinə ağır itki üz vermişdir. Milli teatr və kino sənətinin tanınmış nümayəndəsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, respublikanın Xalq artisti Rafael Məlik oğlu Dadaşov 2020-ci il mart ayının 16-da ömrünün 75-ci ilində vəfat etmişdir.***

Rafael Dadaşov 1946-cı il yanvarın 4-də Zaqatala rayonunda anadan olmuşdur. O, Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra, 1966-1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif işi fakültəsində ali təhsil almışdır. 1967-ci ildən etibarən əmək fəaliyyətinə başlayan Rafael Dadaşov 1974-cü ilədək olan dövr ərzində Bakı Dövlət Sirkində, Naxçıvan Muxtar Respublikası Mahnı və Rəqs Ansamblında və Ümumittifaq Sirkində müxtəlif vəzifələrdə çalışmış, 1974-1976-cı illərdə Naxçıvan Muxtar Respublikasında Xalq Yaradıcılığı Evində təlimatçı olmuş, eyni zamanda, oranın Televiziya və Radio Komitəsində işləmişdir.

1976-cı ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasında aktyor kimi yaradıcılıq yoluna başlayan Rafael Dadaşov burada aparıcı səhnə ustası olaraq sənət fəaliyyətini ömrünün sonunadək davam etdirmişdir.

Rafael Dadaşovun aktyorluq yaradıcılığı müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutur. Ekranda və səhnədə canlandırdığı, təbiiliyi və inandırıcılığı ilə səciyyələnən rəngarəng xarakterli qəhrəmanlar onu sənətin incəliklərini dərindən mənimsəmiş yüksək səhnə mədəniyyətinə malik aktyor olaraq geniş tamaşaçı auditoriyasına sevdirmişdir.

Rafael Dadaşov teatr aləminə qədəm qoyduğu ilk vaxtlardan sənətsevərlərin qəlbinə yol tapmağa müvəffəq olmuşdur. O, Akademik Milli Dram Teatrının səhnəsində uzun illər ərzində müvəffəqiyyətlə çıxış edərək yüzə yaxın müxtəlif xarakterli yaddaqalan obrazlar qalereyası yaratmışdır. Sənətkarın klassik və müasir Azərbaycan ədəbiyyatına, dünya dramaturji irsinə müraciətlə səhnə həyatı verdiyi bu qəhrəmanlar teatrsevərlərin hafizəsinə həkk olunmuşdur.

Rafael Dadaşov yaradıcılıq potensialını televiziya və kino sahəsində də uğurla nümayiş etdirmişdir. İstedadlı aktyorun bədii filmlərdə və televiziya tamaşalarında məharətlə canlandırdığı obrazlar həmişə özünün fərqli psixoloji-emosional yozumu ilə səciyyələnmişdir. Onun televiziya tamaşalarında yaratdığı personajlar milli televiziyanın fondundakı dəyərli sənət nümunələri sırasında qorunub saxlanmaqdadır.

Rafael Dadaşovun Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilmişdir. O, 1987-ci ildə respublikanın Əməkdar artisti, 2006-cı ildə Xalq artisti fəxri adlarına layiq görülmüş, 2019-cu ildə müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan “Şöhrət” ordeni ilə təltif edilmişdir.

Tanınmış sənətkar, qayğıkeş və səmimi insan Rafael Məlik oğlu Dadaşovun xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Mehriban Əliyeva**
**Əli Əsədov**
**Sahibə Qafarova**
**Samir Nuriyev**
**Eldar Əzizov**
**Əbülfəs Qarayev**
**Fərəh Əliyeva**
**Azər Paşa Nemətov**
**Şəfiqə Məmmədova**
**Mərahim Fərzəlibəyov**
**Rafiq Əzimov**
**Nurəddin Quliyev**
**Bəsti Cəfərova**
**Firəngiz Mütəllimova**

## Rəsmi xronika

Prezident İlham Əliyev Bərdə rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Dövlət idarəçiliyində səmərəliliyin artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Akif Məlikovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncamda deyilir: “Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğində xidmətlərinə görə Akif Turan oğlu Məlikov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin”.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli və “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Moskva şəhəri ilə əməkdaşlıq üzrə Hökumət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 10 oktyabr tarixli 1724 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.



# Hökumət sahibkarlara dəstək üçün təkliflər hazırlayır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə martın 17-də Baş Nazir Əli Əsədovun yanında iqtisadi məsələləri müzakirə etmək üçün hökumətin iclası keçirilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda koronavirus pandemiyasının qlobal miqyasda yaratdığı mənfi mühitin Azərbaycan iqtisadiyyatına mümkün təsirləri və qabaqlayıcı tədbirlər haqqında müzakirələr aparılıb.

Hökumətə tapşırılıb ki, bir həftə ərzində ticarət, ictimai iaşə və nəqliyyat sahələrində tətbiq edilən məhdudlaşdırıcı tədbirlərin təsiri nəticəsində sahibkarlara dəyə biləcək itkilərin minimuma endirilməsi üçün dövlət tərəfindən müxtəlif formalarda dəstək verilməsi də daxil olmaqla təkliflər paketi hazırlansın.

## Musa Quliyev: “Azərbaycan koronavirusla mübarizə sahəsində ən qabaqcıl ölkələr sırasındadır”



Azərbaycan koronavirusla mübarizə sahəsində ən qabaqcıl ölkələr sırasındadır, hazırda hər cür təminatımız var. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentin dünən keçirilən iclasında bildirib. “Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən gün ərzində bir neçə dəfə son vəziyyətlə bağlı məlumat verilir. Hesab edirəm ki, yalan məlumatların yayılmasının qarşısı alınacaq”,- deyən Komitə sədri insanları Nazirlər Kabineti yanında operativ qərargahın tövsiyələrinə əməl etməyə çağırıb.

# Azərbaycan Ordusunda görülən işlər daim Ali Baş Komandanın diqqət mərkəzindədir

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev və nazirliyin digər rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrdən birində olublar.***





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitlə tanışlıqdan sonra zirehli döyüş texnikası üçün saxlanclara, avtoparka, zabit və əsgər yataqxanalarına, qazanxana, camaşırxana, tibb məntəqəsi, ərzaq və əşya anbarları, eləcə də digər xidməti və inzibati otaqlara baxış keçirilib.

Müdafiə nazirinin əmri ilə döyüş texnikasının təlim-həyəcan siqnalı ilə əraziyə çıxarılması tapşırığı uğurla icra olunub.

Qoşunların təmas xəttindəki əməliyyat şəraiti barədə məruzələri dinlədikdən və bölmələrdəki vəziyyətlə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov və general-polkovnik



Məhərrəm Əliyev düşmən mövqelərini müşahidə ediblər. Müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olması barədə müvafiq tapşırıqlar verib.

Sonra Horadiz şəhərində Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə gül dəstələri qoyulub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib.

Ön xətdə olan Müdafiə naziri Lələtəpə istiqamətindəki döyüş mövqelərində xidmət edən hərbi qulluqçularla görüşüb, onların xidmət şəraiti ilə maraqlanıb.

Şəxsi heyətlə görüş zamanı Ali Baş Komandanın rəhbərliyi ilə aparılan genişmiqyaslı hərbi islahatlar, həmçinin hərbi qulluqçuların sosial şəraitinin yaxşılaşdırılması barədə danışan general-polkovnik Məhərrəm Əliyev bu məsələlərin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu vurğulayıb. Sonda Novruz bayramı münasibətilə Ali Baş Komandanın təbrikləri şəxsi heyətə çatdırılıb, ön xətdə xidmət edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim olunub və onlarla bayram süfrəsi arxasında söhbət aparılıb.

# Milli Məclisin İqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin iclası keçirilib

Martın 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Komitə sədri Tahir Mirkişili Milli Məclisin üzvlərini təbrik edərək, onlara gələcək fəaliyyətində uğurlar arzulayıb.

Komitə sədri bildirib ki, bu gün dünyada baş verən hadisələr, xüsusi ilə koronavirus infeksiyasının yayılması iqtisadiyyatda yeni bir reallıq yaratmaqdadır. Hazırda iqtisadi fəallığın aşağı düşməsi, bir çox xidmət sahələrində, o cümlədən turizm, loqistika, təhsil, digər sahələrdə məhdudiyyətlərin tətbiq olunması dünya iqtisadiyyatında ləngimə ilə bağlı proqnozların verilməsinə səbəb olub. Dünya artıq yeni mərhələyə qədəm qoyur və bu mərhələdə əsas məsələ inamın bərpa olunması və stimullaşdırıcı tədbirlərin görülməsi ilə bağlıdır. Diqqətə çatdırılıb ki, Azərbaycanda son illər sürətlə həyata keçirilən sosial-iqtisadi islahatlar ümummilli məqsədlərə xidmət edir. Bu islahatlar qısa zaman ərzində nəticəsini verib. Əhalinin maddi rifah halını qorumaq üçün dövlətimizin kifayət qədər imkanları mövcuddur.



Qeyd edilib ki, komitənin qarşısında duran əsas məsələ fəaliyyətini Azərbaycan Prezidentinin Milli Məclisin martın 10-da keçirilmiş plenar iclasında söylədiyi tövsiyələr üzərində qurmaqdır. Tahir Mirkişili bildirib ki, qəbul olunmuş qanunların təftiş olunması, qanunların təkmilləşdirilməsi ilə bağlı təşəbbüslərlə çıxış etmək, qanunların icra mexanizmləri ilə yerlərdə tanış olmaq, toplanan bütün məlumatlarla bağlı vahid mövqedən çıxış etmək məqbul hesab edilir.

Sonra komitə sədri gündəliyə daxil edilən məsələlər barədə məlumat verib. Bildirib ki, gündəlikdə ilk məsələ V çağırış Milli Məclisin 2019-cu ilin payız sessiyası dövründə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin gördüyü işlər barədə hesabatı və VI çağırış Milli Məclisin 2020-ci ilin yaz sessiyası üçün komitənin qanunvericilik işləri planıdır. Qeyd olunub ki, yaz sessiyasında 3 sənədin - "Lombardlar haqqında", "Kabel televiziyası haqqında" və "Turizm haqqında" qanun layihələrinin müzakirəsi və qəbul edilməsi nəzərdə tutulub.

Deputatlar Vahid Əhmədov, Əli Məsimli, Vüqar Bayramov, Məşhur Məmmədov yaz sessiyasının iş planına bir sıra təkliflər veriblər. Komitə sədri təkliflərə münasibət bildirib.

Sonra gündəlikdəki qanun layihələrinə baxılıb. Əvvəlcə "Quru limanlar haqqında" Hökumətlərarası Sazişə qoşulmaq barədə qanun layihəsi haqqında məlumat verilib. Qeyd olunub ki, Saziş 2013-cü il noyabrın 7-də Banqkok şəhərində imzalanıb. Sazişdə quru limanların milli proqramlar çərçivəsində və milli qanun və qaydalara uyğun olaraq inkişaf etdirilməsi nəzərdə tutulur. Burada, habelə Sazişin imzalanması, ratifikasiyası, qəbuletmə, təsdiqetmə və qoşulma, sənədin qüvvəyə minməsi kimi məsələlər tənzimlənir. Eyni zamanda, Sazişin icrası ilə bağlı məsələlərə və təklif olunan düzəlişlərə baxılması üçün quru limanlar üzrə işçi qrupun yaradılması, əsas mətnə və əlavələrə düzəlişlərin edilməsi proseduru, sazişdən çıxma, sazişin qüvvəsinin dayandırılması, mübahisələrin həlli və digər məqamlarla bağlı bəndlər öz əksini tapıb.

Sonra Tahir Mirkişili "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının və Türkmənistanın rabitə operatorları tərəfindən Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. Bildirilib ki, sənədə görə, tərəflər Azərbaycan-Türkmənistan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik kabel magistralının çəkilməsi və telekommunikasiya sahəsinə sərmayələrin cəlb olunması məqsədilə razılığa gəliblər. Saziş 2019-cu il noyabrın 28-də Aşqabad şəhərində imzalanıb.

Sonra birinci oxunuşda təqdim olunmuş "Təhsil haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihəyə baxılıb. Qeyd edilib ki, dəyişikliklər əsasən texniki xarakter daşıyır. İclasın sonunda qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# "Koronavirus təhlükəsi ilə əlaqədar cəmiyyətin hər bir üzvünün üzərinə müəyyən vətəndaşlıq məsuliyyəti düşür"

Koronavirus pandemiyası sərhəd tanımır, ən qısa müddətdə ən fərqli coğrafiyalarda insanların sağlamlığını və həyatını təhdid edir. Bütün səylərə baxmayaraq, hələlik dünyanın heç bir ölkəsində bu virusun qarşısının alınmasına nail olunmayıb. Güclü səhiyyə sisteminə malik bir sıra Avropa ölkələrində belə koronavirusa qarşı səmərəli mübarizə aparmaq mümkün olmur. Belə olan halda, ölkəmizdə koronavirusa yoluxmaların minimum həddə olması məmnunluq yaradır və vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir. Şübhəsiz ki, bunun əsasında hər şeydən əvvəl Azərbaycan dövləti tərəfindən vaxtında atılan qətiyyətli addımlar və görülən effektiv tədbirlər dayanır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu bildirib.

O qeyd edib ki, ölkəmizdə səhiyyə xidmətlərinin əlçatanlığı, gigiyena mədəniyyətinin yüksək olması, ictimai yerlərdə hökumətin müəyyənləşdirdiyi qaydalara diqqətlə riayət edilməsi virusun kütləvi şəkildə yayılmasının qarşısını alan addımlardan hesab edilə bilər. Ancaq əsas məsələlərdən biri koronavirus təhlükəsinə qarşı tədbirlərin kompleks şəkildə və ardıcıl olaraq həyata keçirilməsidir ki, bu da hər şeydən əvvəl Azərbaycan dövlətinin öz vətəndaşlarına qayğısı və diqqəti kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, təhlükə ortaya çıxar-çıxmaz Azərbaycan Prezidentinin göstərişi ilə Nazirlər Kabineti yanında operativ qərargahın yaradılması, tranzit yüklərin daşınmasında xüsusi qaydaların tətbiq edilməsi, qabaqlayıcı tədbirlərə kömək edəcək tibbi vasitələrin möhtəkirliyini etməyə çalışanlara qarşı ciddi tədbirlərin görülməsi öz nəticəsini verdi və bu gün Azərbaycan koronavirusun ən az yayıldığı ölkələrdən biridir.

"Şübhəsiz ki, bu istiqamətdə atılan əsas addımlardan biri də sosial şəbəkələrdə və internet resurslarında koronavirusla bağlı yayılan



"informasiya pandemiyası"na qarşı aparılan mübarizə və görülən sərt tədbirlər oldu. Başlanğıcda ictimai ajiotaj yaratmaq istəyənlərə qarşı hüquq-mühafizə orqanlarımız tərəfindən edilən qəti xəbərdarlıqlar və həyata keçirilən tədbirlər ən azı qoruyucu vasitələrin möhtəkirliyini edənlərə qarşı görülən tədbirlər qədər səmərəli oldu və öz nəticəsini verdi. Əlbəttə, hazırda təhlükənin sovuşuğundan danışmaq tezdir. Ona görə də koronavirus təhlükəsi ilə əlaqədar cəmiyyətin hər bir üzvünün üzərinə müəyyən vətəndaşlıq məsuliyyəti düşür. Biz bu ümumi kütləvi təhdidə qarşı birlikdə mübarizə aparmalı və hökumət tərəfindən həyata keçirilən tədbirlərə dəstək verməliyik. Hazırda dövlətimiz bir sıra ölkələrlə müxtəlif kommunikasiyalara məhdudiyyətlər qoyur və bunu məhz vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün edir. Eyni zamanda, ayrı- ayrı ölkələrdə olan vətəndaşlarımızın ölkəmizə gətirilməsi üçün müvafiq tədbirlər həyata keçirir. Bütün bunlar isə cəmiyyətimiz tərəfindən təqdir olunur. Unutmaq olmaz ki, bu, bir pandemiyadır", - deyə deputat əlavə edib.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Martın 17-də Azərbaycan Respublikası Milli Məclisinin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası Milli Məclisin Sədri Sahibə Qafarova açaraq gündəliyi təqdim edib.***

Dörd məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra Milli Məclisin Sədri Sahibə Qafarova dünya miqyasında yayılmış koronavirus (COVID-19) pandemiyasına toxunub. Qeyd edib ki, Azərbaycanda bu təhlükəyə qarşı səmərəli mübarizə təşkil olunub. Ölkəmizdə epidemiyaya qarşı görülən işlər ÜST tərəfindən yüksək qiymətləndirilib. Plenar iclasa təqdim olunmuş qanun layihələrinin dördü də həmin tədbirlərlə əlaqədardır. Bu qanun layihələrinin qəbul edilib qüvvəyə minməsi nəzərdə tutulan mübarizənin kompleks şəkildə həyata keçirilməsinə hüquqi baza yaradacaq.

Sonra Milli Məclisin Sədri deputatları koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində Azərbaycanın Baş Naziri tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət qurumlarının rəhbərlərinə göndərilmiş təlimat məktubunun məzmunu ilə tanış edib. Sahibə Qafarova vurğulayıb ki, yüksək sürətlə yayılan bu infeksiyaya qarşı ölkə rəhbərliyinin həyata keçirdiyi tədbirlərin səmərəli nəticə verməsi üçün vətəndaşların da məsuliyyətli olması vacibdir.

Plenar iclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəlikdəki iki qanun layihəsini təqdim edib. Bildirib ki, İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə təklif olunan dəyişikliklər Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələn təxirəsalınmaz tədbirlərin ölkə ərazisində həyata keçirilməsi məqsədi daşıyır. Azərbaycanda bir ay müddətində kütləvi tədbirlər təxirə salınıb, dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

Diqqətə çatdırılıb ki, İnzibati Xətalar Məcəlləsinin "Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması"na dair 211-ci maddəsinə edilən dəyişiklik inzibati məsuliyyəti nəzərdə tutur, müvafiq cərimələrin məbləği artırılır. Cinayət Məcəlləsinə əlavə olunan "Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması"na dair 139-1.1-ci maddədə isə 2500 manatdan 5000 manatadək cərimə və ya 3 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Adıçəkilən rejimlərin pozulması insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda isə 3 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrum etmə cəzası verilə bilər.




Plenar iclasda hər iki qanun layihəsi geniş müzakirə olunub.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ÜST-ün elan etdiyi pandemiya və Azərbaycandakı epidemiya ilə bağlı Milli Məclisdə martın 16-da keçirilmiş dinləmələr barədə ətraflı məlumat verib. Bildirib ki, COVID-19 dünya ölkələrində sürətlə yayılır. Koronavirusun uzun inkubasiya dövrünün olması (2-3 həftə), vaksinin hələ də tapılmaması dövlətləri daha ciddi tədbirlər görməyə sövq edir. Komitə sədri ölkəmizdə genişmiqyaslı tədbirlərin görüldüyünü vurğulayıb, karantinə və sosial təcridə çox ciddi əməl olunması zərurətini qeyd edib.

Sonra deputatlar Zahid Oruc, Rəşad Mahmudov, Musa Quliyev, Qüdrət Həsənquliyev, Fazil Mustafa, Qənirə Paşayeva, Hikmət Məmmədov, Jalə Əliyeva, Elman Nəsirov, Milli Məclis Sədrinin müavini Adil Əliyev müzakirə olunan məsələ barədə rəy və təkliflərini bildirdilər. Fikir mübadiləsinin yekununda qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub və qəbul edilib.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələni təqdim edib. Ölkəmizdə koronavirusa qarşı aparılan mübarizəni vətəndaşın dövlət tərəfindən qorunması məqsədilə ən üst səviyyədə görülən tədbirlər kimi dəyərləndirib. Qeyd etdi ki, bəzi tədbirlərin sahibkarlıq subyektlərinə təsirsiz ötüşməyəcəyi indidən məlumdur, təqdim olunmuş qanun layihəsində bu məqam nəzərə alınıb.

Komitə sədri bildirib ki, layihəyə əsasən, bu Qanunun 2.1-ci maddəsində göstərilən yoxlamalar istisna olmaqla Azərbaycan Respublikası ərazisində sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılır. Qanun layihəsi özəl tibb fəaliyyəti subyektlərində səhiyyə qanunvericiliyinə əməl olunmasına nəzarəti gücləndirəcək, səmərəliliyi artıracaq, nəticədə əhalinin sağlamlığının daha keyfiyyətli qorunmasına nail olunacaq.

Müzakirə zamanı deputatlar Əli Məsimli, Naqif Həmzəyev, İlham Məmmədov, Razi Nurullayev, Nigar Arpadarai layihəni müsbət dəyərləndirdilər. Məsələ səsə qoyularaq qəbul edilib.

İclasın yekununda "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələyə baxılıb. Layihəni təqdim edən İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində informasiyanın yayılması"na dair 13-2-ci maddədə edilən dəyişiklikləri və "İnternet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi ilə əlaqədar məsuliyyət"i tənzimləyən 13-4-cü maddədə edilən dəyişikliyi ətraflı şərh edib. Müasir dövrdə informasiyanın cəmiyyətdəki danılmaz rolundan söz açaraq yalan məlumatların yayılmasının qarşısının alınması vacibliyini vurğulayıb.

Fikir mübadiləsində deputatlar Qənirə Paşayeva, Sabir Rüstəmxanlı, Bəhruz Məhərrəmov, Hikmət Məmmədov, Hicran Hüseynova, Elşad Mirbəşir, Musa Qasımlı, Erkin Qədirli, Rauf Əliyev, Arzu Nağıyev, Tahir Mirkişili, Ziyafət Əsgərov, Fəzail Ağamalı qanun layihəsinə münasibət bildiriblər. Layihə səsə qoyulub və qanun qəbul edilib. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

## Operativ Qərargah: "Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna giriş məhdudlaşdırılır"



***Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə bütün səviyyələrdə hərəkətin məhdudlaşdırılması və sosial təcridin gücləndirilməsi tədbirləri davam etdirilir.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, bu məqsədlə martın 19-da saat 00.00-dan etibarən xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla respublikanın şəhər və rayonlarında qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna buraxılması martın 29-dək dayandırılır.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin (avtobus, mikroavtobus, taksi və s.) ölkənin başqa şəhər və rayonlarından Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna sərnişin daşımaları qadağan olunur. Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan nəqliyyat vasitələrinin və onların sərnişinlərinin Bakı şəhərinə sərbəst giriş-çıxışına icazə verilir.

Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda qeydiyyatda olan avtomobillərin və sərnişindaşıma nəqliyyat vasitələrinin qeydiyyatda olduqları yaşayış məntəqələrindən kənara səfər etməkdən və sərnişin daşımaqdan çəkinməyə çağırırıq.

Sumqayıt və Abşeron istisna olmaqla ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır.

Ölkə ərazisindəki hava limanlarından Bakıya sərnişin daşınmasına fasilə verilir. Ticarət əlaqələrinin saxlanması, ərzaq və başqa gündəlik tələbat mallarına ehtiyacı təmin etmək məqsədilə bütün nəqliyyat vasitələri ilə yükdaşımaları sərbəstdir. Xüsusi buraxılış rejimi qaydalarını pozan şəxslər haqqında hüquqi məsuliyyət tədbirləri tətbiq olunacaq.

## Əhliman Əmiraslanov: "Epidemioloji qaydaları pozan insanlara qarşı təsirli addımlar atılmalıdır"



Azərbaycanda epidemioloji qaydaları pozan insanlara qarşı təsirli addımlar atılmalıdır. AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlamentin dünən keçirilən iclasında deyib. Onun sözlərinə görə, Azərbaycanda koronavirusla mübarizə üçün adekvat tədbirlər hazırlanıb və həyata keçirilib. Onun sözlərinə görə, ölkəmizdə kifayət qədər avadanlıqların olmasına baxmayaraq, Prezidentin tapşırığı ilə Azərbaycana qoruyucu vasitələr, avadanlıqların gətirilməsi davam edir.

## Tahir Mirkişili: Prezident İlham Əliyevin parlamentdəki nitqi bizim fəaliyyət planımızın əsasını təşkil edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasındakı nitqi bizim fəaliyyət planımızın əsasını təşkil edir. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin iqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib.

T.Mirkişili bildirib ki, dövlətimizin başçısının çıxışından tezislər Milli Məclisin qarşıda duran vəzifələrini müəyyənləşdirir və bizi daha məsuliyyətlə işləməyə vadar edir. Komitə sədri deyib: "Fəallığımızı daha da artırmalıyıq. Yeni üsullardan istifadə etməklə kəmiyyətdən daha çox keyfiyyəti yüksəltməliyik. Hüquqi normativ baza daha da möhkəmləndirilməlidir.

# "Serbiya dövləti beynəlxalq siyasi dairələrdəki nüfuzuna xələl gətirməməlidir"



***"Rəsmi Bakı bir çox ölkələrlə diplomatik əlaqələrinin inkişafında, tərəqqisində maraqlıdır. Eyni zamanda, münasibət qurduğu ölkələrin, o cümlədən Serbiyanın da yürütdükləri xarici siyasət daim Azərbaycanın diqqət mərkəzindədir". SİA xəbər verir ki, bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Serbiya Respublikasının Ermənistanla hərbi sahədə mümkün əməkdaşlığını şərh edərkən deyib.***

Onun sözlərinə görə, əslində işğalçılığı bir sıra beynəlxalq mötəbər qurumlar tərəfindən tanınmış Ermənistanla hərbi sahədə əməkdaşlıq marağı bir sıra meyarlarla üst-üstə düşmür. Belə ki, bu, ilk növbədə rəsmi Belqradın beynəlxalq aləmdəki siyasi nüfuz dairəsinə ziyan vura bilər: "Rəsmi Bakı nəinki əməkdaşlıq etdiyi digər dövlətlərin siyasətlərini izləyir - çünki bu gələcək siyasi münasibətlər kontekstində əhəmiyyətlidir - o cümlədən bir sıra dövlətlərin Ermənistanla münasibətlərini də xüsusi diqqətdə saxlayır. Bu baxımdan da hesab edirəm ki, əgər bu gün Serbiya işğalçı və təcavüzkar Ermənistanla əlaqələrini möhkəmləndirirsə, daha dəqiq desək, hərbi sahədə əməkdaşlığa meyllənirsə, bu ilk növbədə Serbiyanın Cənubi Qafqaz regionunda lider dövlət olan Azərbaycanla əməkdaşlıq əlaqələrinin ruhuna uyğun hesab edilə bilməz. Çünki Azərbaycan bir sıra ölkələrlə, o cümlədən Serbiya ilə iqtisadi, enerji və s. bir çox sahələrdə əməkdaşlıq edir. Əgər belədirsə, bu zaman Serbiya-Ermənistan hərbi əlaqələri bu əməkdaşlığa mənfi təsirlər göstərə bilər".

Siyasi ekspertə görə, bu gün Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti nəticəsində işğalçı ölkə bir sıra regional və beynəlxalq layihələrdən kənarda qalıb: "Heç bir iqtisadi gücə malik olmayan bir ölkə ilə Serbiyanın əməkdaşlıq etməsi əslində bir Balkan ölkəsinə bir səmərə verə bilməz. Çünki Ermənistanın iqtisadi resursları tükənib, ölkənin rəhbərliyi xilas yolunu yalnız xarici ölkələrdən pənah ummaqda, diaspor vasitəsi dilənçilik pulu yığmaqda görür. Belə olan halda, Serbiyanın sözügedən məsələdə qəbul etdiyi qərarı həqiqətən də suallar doğurur. Düşünürəm ki, belə bir vəziyyətdə Azərbaycan Ermənistan-Serbiya hərbi əməkdaşlığından narahat olur. Çünki bu kimi həssas məsələdə mühüm məqamlar diqqətə alınmalı, Serbiya dövləti beynəlxalq siyasi dairələrdəki nüfuzuna da xələl gətirməməlidir".

# "Serbiyanın özü xarici ölkələrdən silah və sursat alır"

***"Serbiya hərbi texnika baxımından inkişaf etmiş ölkə sayılmır. Serbiya Respublikasının özü xarici ölkələrdən silah və sursat alır". Bu sözləri SİA-ya açıqlamasında siyasi məsələlər üzrə ekspert Zaur Məmmədov Serbiya Respublikasının Ermənistanla hərbi sahədə əməkdaşlığı məsələsini şərh edərkən deyib.***



O bildirib ki, Ermənistan Respublikasının dünyanın müxtəlif ölkələri ilə hərbi əməkdaşlığına nəzər salsaq kifayət qədər kiçik və cılız rəqəmlərin şahidi olarıq: "Ermənistanın bugünkü ordusu və eyni zamanda Qarabağdakı separatçı rejimlər əsasən bir ölkədən silahla təhciz olunurlar. Ermənistanın partnyor müstəvisində Rusiyadan aldığı silah və sursatlar böyük üstünlük təşkil edir. Ayrı-ayrı kütləvi informasiya vasitələri müstəvisində Ermənistanın bəzi Avropa ölkələri ilə hərbi-texniki əməkdaşlığından yazılması təbii ki, şişirdilən məlumatlardan ibarətdir".

Ekspert vurğulayıb ki, Serbiyanın özü də hərbi texnika baxımından kifayət qədər inkişaf etmiş ölkə sayılmır: "Serbiya Respublikasının özü xarici ölkələrdən silah və sursat alır. Bu ölkələrin siyahısında da Rusiya üstünlük təşkil edir. Lakin, Azərbaycan kifayət qədər hərbi texnika baxımından güclü dövlətlərlə əməkdaşlıq edir. Azərbaycanın kifayət qədər güclü ordusu var. Ermənistandan fərqli olaraq bizim bir çox ölkə ilə hərbi əməkdaşlığımız var. Bu ölkələrə Rusiya, İsrail, Türkiyə, Pakistan və digər inkişaf etmiş ölkələr daxildir. Hansı ki, onlar ən qabaqcıl silahlarla Azərbaycan ordusunu təhciz edirlər.

Türkiyə ordusunun yaxın zamanlarda İdlibdə həyata keçirdiyi hərbi əməliyyatlar, hərbi texnikaları dünyada şok effekti yaratdı. Azərbaycan artıq bir neçə ildir ki, Türkiyə ilə hərbi-texniki cəhətdən əməkdaşlıq edir. Elə dünən də Müdafiə Naziri Zakir Həsənovun bildirdiyi kimi, bu əməkdaşlıq hələ davam edəcək. Nəticədə demək olar ki, Ermənistanın dünyanın ayrı-ayrı ölkələri ilə hərbi-texniki əməkdaşlığa can atması reallıqdan uzaqdır. Ermənistanın buna nə büdcəsi imkan verə bilər, nə də ayrı-ayrı ölkələr Ermənistanla bu qədər yaxın əməkdaşlığa gedə bilər".

***Nigar Məmmədova***

# "Kosovo məsələsində Azərbaycan Serbiyanın ərazi bütövlüyünü tanıyıb"

"Ermənistan beynəlxalq hüququ pozan bir dövlətdir və Azərbaycan torpaqlarını işğal edib. İşğalçı dövlətlə heç bir əməkdaşlıqdan söhbət belə gedə bilməz. Beynəlxalq hüquqa görə separatizm, soyqırım ən ağır cinayətlərdəndir". Bunu SİA-ya Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin (TOHGMİB) sədri, hərbi ekspert Emin Həsənli deyib.



Hərbi ekspertin sözlərinə görə, Ermənistan Azərbaycan ərazisində, Xocalıda soyqırım aktı həyata keçirib: "Eyni zamanda işğalçı dövlət Azərbaycan ərazisində 32 terror hadisəsi həyata keçirib. Bu ağır cinayətləri törətmiş dövlətlə əməkdaşlıq yol verilməzdir. Xüsusən hərbi əməkdaşlıq qəbuledilməzdir. Azərbaycan beynəlxalq hüquqa söykənərək dünya dövlətləri ilə ikitərəfli əməkdaşlıq edir. Təbii ki, Serbiya dövləti ilə də bizim əməkdaşlığımız var. Amma Serbiya Respublikasının Ermənistanla hərbi sahədə mümkün əməkdaşlığı təəssüf doğurur. Hesab edirəm ki, bu fakta Serbiya dövləti yenidən baxmalıdır və təcavüzkar Ermənistanla hərbi əməkdaşlığı dayandırmalıdır. Kosovo məsələsində Azərbaycan Serbiya dövlətinin ərazi bütövlüyünü tanımışdır. Eləcə də dünyanın bütün dövlətləri ilə beynəlxalq hüquq səviyyəsində öz əməkdaşlığını (qarşı dövlətlərin mənafeyini nəzərə almaq şərtilə) qurur. Ermənistan mütləq işğala son qoymalıdır. Bunun başqa yolu yoxdur. Əks təqdirdə Azərbaycan öz ərazi bütövlüyünü təmin etməlidir. Yaxşı olardı ki, dünya birliyi bu məsələyə seyrçi mövqedən yanaşmasın. Azərbaycanın Avropa, dünya ölkələri ilə xoş münasibətləri var. O cümlədən Serbiya ilə gələcəkdə bu münasibətlər davam edəcəkdir. Biz ümidvarıq ki, Serbiya bu məsələyə yenidən baxacaq və Ermənistanla heç bir hərbi, texniki sahədə əməkdaşlığa yol verməyəcək. Çünki bu qəbuledilməzdir".

***Ceyhun Rasimoğlu***

# Azərbaycanda daha 3 nəfər koronavirusa yoluxub



Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3 yoluxma faktı qeydə alınıb. Xüsusi rejimli xəstəxanalara yerləşdirilən və müşahidə altında olan həmin şəxslər özlərini normal hiss edirlər, səhhətləri stabil qiymətləndirilir. AZƏRTAC bildirir ki, bu barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahın məlumatında deyilir. Hazırda xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altında olan bütün aktiv koronavirus xəstələrinin müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. Məlumatda deyilir: "Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq".

# Xalq artisti Rafael Dadaşov son mənzilə yola salınıb

***Akademik Milli Dram Teatrının aktyoru, Xalq artisti Rafael Dadaşov dəfn edilib. AZƏRTAC xəbər verir ki, mərhum II Fəxri Xiyabanda torpağa tapşırılıb. Xalq artistinin məzarı önünə Azərbaycan Respublikasının Prezidenti və Birinci vitse-prezidenti adından əklil qoyulub.***

Məzarın ətrafına hökumət təşkilatları və müxtəlif kollektivlər adından da əklillər və qərənfillər düzülüb. Vida mərasimində respublikanın tanınmış mədəniyyət və incəsənət xadimləri, ziyalılar, ictimaiyyət nümayəndələri iştirak edirlər. Qeyd edək ki, Rafael Dadaşov srağagün günorta saatlarında uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.




Rafael Dadaşov 1946-cı il yanvarın 4-də Zaqatala rayonunda anadan olub. O, Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra, 1966-1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif işi fakültəsində ali təhsil alıb. 1967-ci ildən etibarən əmək fəaliyyətinə başlayan Rafael Dadaşov 1974-cü ilədək olan dövr ərzində Bakı Dövlət Sirkində, Naxçıvan Muxtar Respublikası Mahnı və Rəqs Ansamblında və Ümumittifaq Sirkində müxtəlif vəzifələrdə çalışıb, 1974-1976-cı illərdə Naxçıvan Muxtar Respublikasında Xalq Yaradıcılığı Evində təlimatçı olub, eyni zamanda orada Televiziya və Radio Komitəsində işləyib.

1976-cı ildən ömrünün sonunadək Akademik Milli Dram Teatrında çalışan aktyor ötən illər ərzində bu sənət ocağının səhnəsində dünya və milli dramaturgiya nümunələri əsasında hazırlanmış tamaşalarda müxtəlif xarakterli yaddaqalan dramatik və tipik obrazlar yaradıb, ümumilikdə 100-ə yaxın rolda uğurla çıxış edib.

Rafael Dadaşovun Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilib. O, 1987-ci ildə respublikanın Əməkdar artisti, 2006-cı ildə Xalq artisti fəxri adlarına layiq görülüb, 2019-cu ildə müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilib. Tanınmış sənətkarın xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaq. Allah rəhmət eləsin.

# Əmlakın sığortalanması və bu sahədə maariflənmə öz aktuallığını qoruyur

***Təbii fəlakətlər, ehtiyatsızlıq və digər səbəblərdən əmlakın ya qismən, ya da tamamilə yararsız hala düşməsinin ictimaiyyət dəfələrlə şahidi olub. Əslində, təbii fəlakətlərin olmayacağına və yaxud bu fəlakətlərin acı nəticələrinin yan keçəcəyinə əmin olmaq da mümkün deyil. Çünki fövqəladə hadisələr hər an baş verə bilər. Heç kimin sığortalanmadığı bu hadisələrdən, sözün əsl mənasında, sığortalanmaq lazım gəlir.***



İstənilən fövqəladə və zərərlə nəticələnən hadisə baş verdikdə, heç şübhəsiz ki, əmlak sahibləri onlara dəymiş zərərin ödənilməsi üçün maraqlı olurlar və qarşılığının əldə edilməsinə çalışırlar. Lakin əmakın zərər görməsi ilə nəticələnən gözlənilməz hadisələr baş verməzdən öncə, həmin mülk sahibləri öz əmlaklarını sığortalamadıqlarına görə maraqlarının ödənilməsi, zərərin heç olmasa, qismən də olsa, ödənilməsi üçün hara müraciət edəcəklərini də bilmirlər. Çünki həmin vətəndaşlar əmlaklarını sığortalatmağa ya maraq göstərməyiblər, ya da sığortalanmaya ciddi yanaşmayıblar.

Son zamanlar vəziyyət tamamilə dəyişib və ötən illərlə müqayisədə əmlakın icbari sığortalanmasında artım müşahidə edilir. Əvvəla, ona görə ki, vətəndaşlar belə halların şahidi olurlar və bu hadisələrdən əvvəlcədən sığortalanmağın vacibliyi ön plana keçir. Vətəndaşlar özləri öz əmlaklarını sığortalanmağa könüllü şəkildə maraq göstərirlər. Digər tərəfdən də, 2011-ci il iyunun 24-də "İcbari sığortalar haqqında" Qanun əmlakın sığortalanmasının vacib olduğunu şərtləndirir. Daha dəqiq desək, 2012-ci il yanvarın 1-dən tətbiqinə başlanılan qanun layihəsi hüquqi və fiziki şəxslərə məxsus əmlakın icbari qaydada da sığortalanmasını nəzərdə tutur. Daşınmaz əmlakın icbari sığortası daşınmaz əmlakın zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Məhz bu məqsədlərə görə də hüquqi və fiziki şəxslərə məxsus əmlakın, habelə, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının sığortası icbaridir.

Doğrudur, sığortalanmanın nəyə görə vacib olması barədə maarifləndirmə bu gün də öz aktuallığını qoruyur. O, əmlaklarını sığorta etdirməyin ən vacib məsələ olması barədə vətəndaşlar, mütəmadi olaraq, məlumatlandırılmalıdırlar. Bu barədə ölkə başçısı keçirdiyi müşavirədə də vurğulayıb və qeyd edib ki, vətəndaşlar evlərinin və əmlaklarının sığortalanmalı olduğunu bilməlidirlər. Cənab Prezidentin dediyi kimi, həqiqətən də, vətəndaşlar bilməlidirlər ki, öz əmlaklarını sığortalamaqla, hər kəs hər hansı bir təbii fəlakətdən, fövqəladə hadisədən malını və mülkünü qorumuş olur. Çünki sığorta şirkətləri belə arzuolunmaz hadisələr samanı mülkiyyətini sığorta edən zərərçəkənlərin maddi ziyanını ödəyirlər.

Dünya təcrübəsinə müraciət etsək, görərik ki, insanlar öz mülklərini sığortalamaqla dəymiş maddi ziyanı sığorta şirkətlərindən tələb edə bilirlər və məhz bu səbəbdən, heç bir risklə üzləşə bilməyəcəklərinə əmindirlər. İnkişaf etmiş ölkələrdə hər hansı ticarət obyektində, hansısa müəssisədə, məsələn, yanğın baş verdikdə, maliyyə məsuliyyətini sığorta şirkətləri daşıyır, çünki mülkiyyət qabaqcadan sığortalandığı üçün kompensasiya ödənişinə cabahdehlik, məhz həmin şirkətlərin üzərinə düşür. Təbii fəlakətlər nəticəsində şəxsi evlərə, malikanələrə, digər mülklərə ziyan dəydiyi təqdirdə, yalnız sığortaçılar köməyə gəlir və onlara maliyyə yardımı edilir. Elə bu səbəbdən də, həmin ölkələrdə, dövlət bizdə olduğu kimi, əlavə qayğı ilə qayğılanmır və əlavə vəsaitlərin, izafi olaraq, xərclənməsi kimi yükdən də azaddır. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanda olduğu kimi, heç bir ölkədə vətəndaşa dəymiş maddi ziyan dövlət tərəfindən ödənilmir. Yəni təbii fəlakətlər və fövqəladə hadisələr zamanı zərər çəkən vətəndaşlara yardım edən Azərbaycan kimi ikinci bir ölkə yoxdur. Buna ən gözəl nümunə olaraq, ABŞ-da 11 sentyabr hadisələri zamanı partladılan əkiz qülllələrə dəyən 58 milyard dollarlıq zərəri göstərmək olar. Bu hadisə zamanı dövlət heç bir ödəniş etmədi, çünki qüllələr sığortalanmışdı və zərəri də, bütünlükdə, sığorta şirkətləri ödədilər. Heç bir ölkədə dövlət Azərbaycandakı qədər yüklənməyib. Səbəb isə vətəndaşlarımızın öz əmlaklarını sığortalamamasıdır və məhz bu səbəbdən, vətəndaşlar da bilməlidirlər ki, dövlət özü də bu məsələdə maraqlıdır. Əks halda, bu ildən etibarən daşınmaz əmlakın icbarı sığortası üzrə cərimənin tətbiqi nəzərdə tutulmazdı.

Xatırladaq ki, İnzibati Xətlar Məcəlləsinin 469.1-ci bəndində daşınmaz əmlakını icbarı sığortalamaqdan yayındırdığına görə fiziki şəxslərin 30 manat, vəzifəli şəxslərin 80 manat, hüquqi şəxslərin isə 200 manat cərimə ödəməli olduqları qeyd olunur. Bir sözlə, mülkiyyətin sığortalanması icbari xarakter daşıyır və vətəndaşlar bu məsələdə qanun qarşısında cavabdehdirlər.

Ölkəmizdə sığorta fəaliyyəti varsa da, bu fəaliyyət sahəsini, ilk növbədə, inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaq lazım gəlir və bu görüləcək işlər sırasında ən vacibidir. Bu sahənin işinin təkmilləşdirilməsi, daha da gücləndirilməsi üçün, sözsüz ki, əvvəlcə maarifləndirmə, eyni zamanda, təbliğat və təşviqat işləri aparılmalıdır. Bu maarifləndirmə və təbliğat-təşviqat işləri vətəndaşların öz əmlakını sığortalamasına marağın təmin edilməsi üçün vacib məsələdir. Çünki öz mülkünün sığortalanmasının mahiyyəti və əhəmiyyəti tam şəkildə aydın olduğu təqdirdə, vətəndaşların əmlaklarını könüllü şəkildə sığortalayacağına zərrə qədər şübhə ola bilməz. Eyni zamanda, sığorta biznesi fəaliyyətinin mütləq şəkildə hüququ-normativ bazası yaradılmalıdır. Hüquqi-normativ baza yaradılmalıdır ki, bu fəaliyyət inkişaf etsin, həmçinin, tələblərə də cavab versin və vətəndaşların da, dövlətin də sığorta şirkətlərinə inamı və etibarı artsın. Məhz sığorta fəliyyətinin mükəmməl qurulması nəticəsində, əvvəla, sığortalanma məsələsi məntiqi şəkildə təşkil edilə bilər, daşınmaz əmlak sığortası müəyyən edilmiş hüquqi-normativ qaydalara əsasən, diferensiallaşdırılar . Nəticədə isə, həm vətəndaş məmnunluğu artar, həm də dövlət bu vaxta qədərki əlavə qayğı ilə qayğılanmaz, əlavə vəsaitlərin, izafi olaraq, xərclənməsi kimi yüklənməz. Bu isə, öz növbəsində, dövlət büdcəsinin daha da artmasına və sosial rifahın daha da yaxşılaşmasına öz töhfələrini vermiş olar.

Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası isə "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun Xüsusi Bölməsinin 3-cü fəslində nəzərdə tutulub. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası müvafiq əmlakın istismarı, o cümlədən, həmin əmlakın ərazisində inşaat, təmir, yenidənqurma və ya digər işlərin həyata keçirilməsi zamanı üçüncü şəxslərin sağlamlığına və əmlakına dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir. Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin sığortası icbari olan əmlak dedikdə, hüquqi şəxslərin öz fəaliyyətini, həmçinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin sahibkarlıq fəaliyyətini həyata keçirməsi üçün istismar etdiyi daşınmaz əmlak olan binalar, tikililər, qurğular v sahələr başa düşülür.

Təəssüf ki, vətəndaşlar gələcək riskləri düzgün qiymətləndirmədiklərindən könüllü şəkildə sığorta halları çox nadir hallarda baş verən hadisəyə çevrilir. Məhz buna görə də, gözlənilməz hadisələrin əmlaka vurduğu zərər zamanı bir çox insanlar evsiz qala, qazanc mənbəyi olan əmlakını itirə bilir. Bu itki, bu zərər, sadəcə, maddi olmaqla bitmir. Çünki itkiyə məruz qalmış vətəndaşın yaranan problemlərin mənfi təsiri ilə mənəvi və psixoloji sarsıntı yaşamasına da səbəb olur. Belə bir durumda isə, vətəndaşın rasional düşünə bilməməsi, maddi yardım mənbəyi tapmaqda çətinlik çəkməsi, evsiz qalması və ya qazanc yerindən məhrum olması demkdir ki, bu da, illər ərzində əldə etdiklərinin itirilməsinə gətirib çıxarır. Məhz bu kimi xoşagəlməz hallardan qorunmaq və risklərdən azad olmaq üçün əmlakın sığortalanması və bu sahədə maariflənmə öz aktuallığını qoruyur.

**İnam HACIYEV**

## Vüqar Bayramov: "Startapların dəstəklənməsi sahibkarlığın inkişafı üçün mühüm şərtlərdəndir"



***Startapların dəstəklənməsi sahibkarlığın inkişafı üçün mühüm şərtlərdəndir. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov parlamentin iqtisadi siyasət, sənaye, sahibkarlıq komitəsinin iclasında deyib.***

Deputat bildirib ki, kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayan startaplar üçün şərait yaradılması vacib məsələlərdəndir. Onun sözlərinə görə, startaplarda vəsait deyil, ideya olur. Onlar ideya verir, vəsaiti isə dövlət ödəyir. V.Bayramov startaplarla bağlı qanun qəbul edilməsi məsələsini müzakirəyə çıxarmağı təklif edib.

## Əliabbas Salahzadə: "Bu tədbirlər, bütövlükdə, vətəndaşlarımızın təhlükəsizliyi və sağlamlığı üçün çox vacib amillərdəndir"

***"Dünyada və Azərbaycanda pandemiyaya çevrilən koronavirus infeksiyasına qarşı sürəkli mübarizə aparılır və bu amil bilavasitə bəşəriyyətin xilasına yönəlmiş mühüm addımdır". Bu fikirləri "SƏS" qəzetinə millət vəkili Əliabbas Salahzadə mövzu ilə bağlı fikirlərini açıqlayarkən bildirib.***



Onun sözlərinə görə, qlobal məsələyə çevrilən "COVİD-19" virusuna qarşı mübarizənin əsas faktorlarından biri də insanların öz üzərlərində məsuliyyət hiss etmələrinin vacibliyidir: "Xüsusilə, biz - parlamentin deputatları istər seçicilərimizlə, istərsə də bütün vətəndaşlara infeksiyadan qorunmanın yollarını təbliğ etməliyik. Çünki məsuliyyətli davranmaq digər insanların da bu təhlükədən yayınmasına xidmət edir".

"Bildiyimiz kimi, bu virus heç bir sərhəd tanımır. Ümumdünya Səhiyyə Təşkilatı başda olmaqla, dünya bu virusa qarşı mübarizə aparır və təəssüf ki, koronavirusa qarşı hələ ki, vaksinasiya tapılmayıb" deyən millət vəkili bildirib ki, hətta dünyanın ən inkişaf etmiş ölkələri də koronavirusun yayılmasına qarşı sərhədləri bağlayır, uçuşları təxirə salır, müxtəlif məhdudiyyət tədbirlərini həyata keçirirlər.

Əliabbas Salahzadə beynəlxalq aləmdəki statistik rəqəmləri də müqayisə edərək, bildirib ki, əslində, Azərbaycanda aparılan müvafiq tədbirlər ölkəmizdə yoluxma sayının digər ölkələrdən az olduğunu göstərir: "Dünya ölkələri üzrə statistik rəqəmlərə, hətta ən inkişaf etmiş ölkələrə baxsaq, görürük ki, Azərbaycan dövləti daha ciddi, daha operativ və təxirəsalınmaz tədbirlər həyata keçirib. Artıq bir neçə ölkə ilə yerüstü və hava nəqliyyatı əlaqələri məhdudlaşdırılıb, lazımi, tələb edilən tədbirlər həyata keçirilir".

Əliabbas Salahzadə hesab edir ki, məsuliyyətin tərkib hissələrindən biri də insanların maksimum evdə qalmaları və dezinfeksiya işlərini aparmasıdır: "Digər tərəfdən, ictimai nəqliyyatda xəstəliyin yayılma imkanlarının geniş olduğunu nəzərə alaraq, insanlar qoruyucu vasitələrdən daha ciddi istifadə etməli və öz təhlükəsizlik məsələlərinə daha diqqətlə yanaşmalıdırlar". "Xarici ölkələrdə yaşayan soydaşlarımız da ölkəmizə qayıdanda, mütləq karantində yerləşdirilməlidirlər və bu istiqamətdə müvafiq addımlar atılır" deyən parlamentin deputatı əlavə edib ki, artıq bu istiqamətdə də - karantin üçün münasib yerlər ayrılıb: "Qeyd edim ki, karantin müddətini başa vuraraq, evə buraxılan kifayət qədər vətəndaşlarımız da var. Ümumiyyətlə, mən də belə hesab edirəm ki, xarici ölkələrdən gələn soydaşlarımız, məhz karantin müddətini keçəndən sonra ailəsinə qayıtmalıdır. Bu tədbirlər, bütövlükdə, vətəndaşlarımızın təhlükəsizliyi və sağlamlığı üçün çox vacib amillərdəndir".

"Artıq Milli Məclisin iclasında da, bu məsələ müzakirə olundu və düşünürəm ki, heç bir ölkə bu xəstəlikdən sığortalanmayıb" deyən millət vəkili, sonda qeyd edib ki, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da daha sərt tədbirlər tətbiq oluna bilər, ictimaiyyət isə, əlbəttə ki, buna mütləq mənada hazır olmalıdır.

**RƏFİQƏ KAMALQIZI**

# Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti

***Son vaxtlar qlobal və regional güclər arasında artan ixtilaflar, beynəlxalq münasibətlər sistemində davam edən gərginlik, o cümlədən dövlətlərin suverenliyi və daxili işlərinə müdaxilələr, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma, həmçinin beynəlxalq münaqişələr, birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran vəziyyəti daha da kəskinləşdirib. Bütün dünyada və bölgədə gedən müxtəlif mənfi proseslərə baxmayaraq, Azərbaycanın hərtərəfli və dinamik şəkildə inkişafı, müstəqil, çoxşaxəli və milli maraqlara söykənən xarici siyasət kursu onun Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi olaraq qalmasını təmin edib.***



AZƏRTAC Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədovun "Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti" sərlövhəli məqaləsini təqdim edir.

2003-cü ildən keçən müddət ərzində Azərbaycan xalqı və dövləti, sözün əsl mənasında, sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilib. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsi əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir.

Son 16 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsulu üç dəfədən çox artmışdır. Azərbaycanın xarici dövlət borcu çox aşağı səviyyədədir və ümumi daxili məhsulumuzun cəmi 17 faizini təşkil edir. Xüsusilə, Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib. Azərbaycanın valyuta ehtiyatları 50 milyard dolları keçib, bununla da hazırda valyuta ehtiyatlarımız xarici dövlət borcumuzdan 5 dəfədən çox artıqdır. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Ölkə iqtisadiyyatına son 16 il ərzində 250 milyard dollardan çox sərmayə qoyulmuşdur. Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Bu, onu göstərir ki, "qara qızıl" və qaz insan kapitalına çevrilmişdir.

Bununla yanaşı, Davos Ümumdünya Forumu və Dünya Bankının hesabatlarında Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır. Azərbaycan çox yüksək yerlərə layiq görülür, o cümlədən islahatların aparılması istiqamətində və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqda yer tuturuq. Ölkədə həyata keçirilən struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar nəticəsində təkcə 2019-cu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplanmış və sosial sahəyə yönəldilmişdir. Nəticədə, bundan 4 milyon 200 mindən çox insan faydalanmışdır. Bununla yanaşı, son illərdə Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir və heç şübhəsiz ki, bu da bəzi xarici dairələri narahat edir.

Azərbaycan Prezidenti İlham Əliyev altıncı çağırış Milli Məclisin birinci iclasındakı dolğun və hər bir azərbaycanlı üçün proqram xarakterli çıxışında informasiya təhlükəsizliyii ilə bağlı demişdir ki, biz informasiya dövründə yaşayırıq və saxta xəbərlər, yəni, "feyk nyus" adlandırılan xəbərlər əfsuslar olsun ki, geniş vüsət alır və istənilən yalan xəbər çox böyük fəsadlara gətirib çıxara bilər: "Biz Azərbaycan olaraq bu şər-böhtan kampaniyaları ilə çoxdan üz-üzəyik. Bunun əsas səbəbi bizim müstəqil siyasətimizdir, heç kimin qarşısında baş əyməməyimizdir. Amma bunun fəsadları odur ki, bizə qarşı informasiya kampaniyası aparılır - qara piar kampaniyası, yalan, böhtan, uydurma, iftira üzərində qurulmuş kampaniya. Ona görə informasiya mühafizəsi ilə, informasiya təhlükəsizliyi ilə əlaqədar mütləq qanunvericilikdə yeni yanaşmalar, yeni fikirlər olmalıdır".

Bununla yanaşı, dövlət başçısı bildirmişdir ki, bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır, eləcə də öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik və bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin: "Ona görə bu, tamamilə mənasızdır. Azərbaycanı hansısa təzyiq altına salmaq cəhdləri, yaxud da ki, sanksiyalarla hədələmək - bütün bunların heç bir əhəmiyyəti yoxdur. Bu, iqtidara qarşı deyil, bu, dövlətə qarşı edilən cinayətdir və bunu heç kim unutmasın".

Azərbaycan Prezidenti İlham Əliyev bir daha diqqətə çatdırdı ki, son illər ərzində biz müxtəlif təzyiqlərlə, müxtəlif kampaniyalarla üzləşmişik, ancaq öz yolumuzdan dönməmişik, cünki ölkəmizin, xalqımızın əmin-amanlığı, təhlükəsizlik, sabitlik, xalqımızın rifahı, müstəqil siyasətimiz bizim üçün hər şeydən üstündür: "Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik, bəzi təşkilatların üzvüyük, o təşkilatlara könüllü şəkildə daxil olmuşuq, könüllü şəkildə də çıxa bilərik - əgər nə vaxtsa bu təşkilatlarda bizi nəsə qane etməsə, yaxud da bizə qarşı olan qərəzli münasibət o həddə çatsın ki, artıq bizim hövsələmiz tükənsin. Ona görə hesab edirəm ki, bütün siyasi qurumların nümayəndələri bu sahədə də çox diqqətli olmalıdırlar".

Qeyd etmək vacibdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən əsassız fikirlər tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirmir.

Bunu Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında, eləcə də oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı tutarlı faktlarla sübut etdi. 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələri zamanı Ermənistan baş nazirinə beynəlxalq hüquqdan və tarixdən əsl dərs keçdi. Azərbaycan Prezidenti Ermənistanın baş nazirinin və dünya birliyinin diqqətinə çatdırdı ki, Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan hüquqazidd addımlarını pisləməli, onun qarşısını almalıdır.

Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri dünyaya çatdırmalı olduğumuzu, vurğulayaraq bildirdi ki, tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Azərbaycanın arqumentlərə qarşı Ermənistan tərəfinin heç bir ciddi arqument qoya bilmədiyini, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiyaya əsaslandığını bildirən dövlət başçısı qeyd etdi ki, bu, əslində, onların xislətidir və onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar, bu da heç kimə sirr deyil.

Azərbaycan Prezidenti İlham Əliyev Kürəkçay sülh müqaviləsi haqqında Münxendəki çıxışını yada salaraq, orada açıqaydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir - deyə bir daha diqqətə çatdırdı: "Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan "Karabaxski Şuşinski". Bax, budur real tarix"

Dövlət başçısı bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətlərin ortaya qoyulmalı olduğunu vurğulayaraq bildirdi ki, XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrdə indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir: "Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm".

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb, amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Dövlət başçısı qeyd etdi ki, ona görə bu, xüsusi bir istiqamət olmalıdır.

Bu baxımdan, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda fəal olmağımızı, hücum diplomatiyası aparmağımızı bildirərək qeyd etdi ki, haqq-ədalət bizim tərəfimizdədir, Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi, çünki onların bütün tarixi saxtakarlıqdır, eləcə də onlar tarixi Azərbaycan torpağında dövlət qurublar və indi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər.

Bundan əlavə, Azərbaycan Prezidenti İlham Əliyev vurğuladı ki, demokratiyadan dərs vermək istəyənlər hansı

# Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın müstəqil, çoxşaxəli və milli maraqlara əsaslanan xarici siyasəti

cinayətlər törədirlər, Avropanın dırnaqarası demokratiya beşiyi sayılan ölkələrdə xalqın gözü qarşısında, dünyanın gözü qarşısında dinc nümayişçiləri vururlar, əzirlər, gözlərini çıxarırlar, öldürürlər, həbs edirlər: "Jurnalistləri əsassız ittihamlarla həbs edirlər, çürüdürlər onları. Göz qabağındadır, dinc nümayişçiləri itlərlə, atlarla dağıdırlar. Bir ölkədə yox, iki ölkədə yox, demək olar ki, bu, indi bizi tənqid etmək istəyən məkanda kütləvi hal alıbdır. Müsəlman miqrantlara qarşı baxın, necə münasibət göstərilir. Onları XXI əsrdə itlərlə əzirlər, qəfəsə salırlar. Sonra isə qəfəsə yemək parçaları atırlar, heyvan kimi. Budurmu münasibət?!"

Hər zaman olduğu kimi qardaş Türkiyə dövlətinə qarşı əsassız iddialara cavab verən Prezident İlham Əliyev bəyan etdi: "Bəs o miqrantlar haradan yarandı? Nə üçün onlar yarandı? Nəyə görə öz ölkələrini tərk etdilər? Kim onların ölkələrinə basqın etdi? Kim o ölkələri məhv etdi? Kim sabitliyi pozdu? Kim milyonlarla qaçqının yaranmasına səbəbkar oldu? Ona görə kim bunu edibsə, qoy, onun acısını da çəksin. Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar".

Müasir dövrdə Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Prezident İlham Əliyev qeyd etmişdir ki, xarici siyasət daxili siyasətin məntiqi davamıdır. Bu baxımdan Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları regionda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir.

Bununla yanaşı, oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı. Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər.

Ümumilikdə, özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğurudur.



Regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmiş Azərbaycan, həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş, güclü dövlət və etibarlı tərəfdaş imici qazanıb. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən humanitar məkan kimi tanınır. Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilib.

Bununla yanaşı, Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və ölkə rəhbərliyinin bütün səyləri regionun inkişafına və xalqın rifahına yönəlib. Artıq reallaşan üçtərəfli, həmçinin dördtərəfli əməkdaşlıq formatları buna əyani sübutdur. Eləcə də ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan xarici ölkələrin iqtisadiyyatına sərmayə yatıran, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə, sivilizasiyalararası dialoqun, qlobal siyasi, iqtisadi, mədəni problemlərin müzakirə olunduğu məkana çevrilib.

Ümumiyyətlə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun son 16 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin edib. Bununla yanaşı, son vaxtlar həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və dövlətimizin başçısının qlobal miqyasda nüfuzunun göstəricisidir.

## Bakıda 2, regionlarda isə 6 yeni DOST mərkəzi yaradılacaq

***Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin qəbulunda olarkən ötən ilin mayından etibarən fəaliyyət göstərən DOST mərkəzləri barədə də bəhs olunub. Qeyd olunub ki, mayda açılan ilk mərkəzdən sonra dekabrdan etibarən fəaliyyət göstərən ikinci mərkəz fəaliyyətə başlayıb və həmin mərkəzlərdə indiyədək birlikdə 81 min müraciət qəbul edilib. Burada göstərilən xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 95,8 faizdir.***



AZƏRTAC xəbər verir ki, qəbulda nazir bu barədə məlumat verərək deyib: "8 yeni mərkəz üzərində iş aparılır. Onlardan biri yaxın günlərdə açılış üçün hazır olacaqdır. Bu 8 mərkəzdən ikisi Bakıda, digərləri Abşeronda, Sumqayıtda, Qubada, Bərdədə, Şəkidə və Sabirabadda yaradılacaq. Regional DOST mərkəzlərində əlavə olaraq peşə hazırlığı mərkəzi komplekslərinin də yaradılması nəzərdə tutulur. Bu mərkəzlərdə müraciət edən işsiz və işaxtaran vətəndaşlarımızın peşə hazırlığı təmin olunacaq".

Nazir qeyd edib ki, DOST mərkəzi fəaliyyətə 90 xidmətlə başlasa da, xidmətlərin sayı əvvəlcə 126-ya, sonra isə 132-yə qədər artıb: "Biz düşünürük ki, yeni məşğulluq xidmətləri də buraya əlavə edildikcə, bu mexanizm təkcə sosial təminatyönümlü deyil, eyni zamanda, məşğulluq və əmək münasibətləri baxımından da geniş nəticə əldə edəcəkdir. "Çağrı" mərkəzi də DOST mərkəzlərinə inteqrasiya olundu. Ona görə də, orada bizim ciddi şəkildə artımımız meydana çıxdı və qısa müddət ərzində Azərbaycanda ən çox istifadə olunan "Çağrı" mərkəzlərindən birinə çevrildi".

# İsveç Krallığı koronavirusdan daha təhlükəli "virusu" aşkarlayıb

*Ölkənin baş naziri Stefan Lyöven bəyan edib ki, sadəcə, sərhədi keçərək ölkəyə daxil olanlarla bağlı cüzi prosedur qaydaları tətbiq olunacaq*

***İsveç Krallığı - həmin azsaylı ölkələrdəndir ki, bu günə qədər sərhədlərini bağlamayıb, burada təhsil müəssisələri, eləcə də, kafelər, restoranlar, trenajor zalları işləməkdə davam edir. Hökumət təhlükəli koronavirusun qarşısının alınması üçün heç bir fövqəladə ölçülər tətbiq etmir. Ölkənin baş naziri Stefan Lyöven bəyan edib ki, sadəcə, sərhədi keçərək ölkəyə daxil olanlarla bağlı cüzi prosedur qaydaları tətbiq olunacaq.***

**Ölkə alimləri digər ölkələrdəki həmkarlarından fərqli olaraq, iddia edirlər ki, koronavirus... təhlükəsizdir!**

İsveçin səhiyyə işləri idarəsi isə, bir neçə gün əvvəl, yalnız ağır dərəcədə xəstə olan insanların - xəstəxana pasientlərinin, tibb personalının və yaşlı şəxslərin koronavirusla bağlı bağlı testdən keçməsini tövsiyə edib. Nə qədər qəribə görünsə də, ölkə alimləri isə, digər ölkələrdəki həmkarlarından fərqli olaraq, iddia edirlər ki, koronavirus... təhlükəsizdir! Belə ki, yoluxanlar



arasında ölüm halı cəmi 2 faizdir.

Məlumata görə, İsveçdə xəstələnənlərin sayı 1000 nəfər həddini keçib. 3 nəfər ölüb, bir nəfər sağalıb, üçü isə ağır vəziyyətdədir. Son zamanlar bundan artıq yoluxma halları qeydə alınmayıb. İndi isə, bu ölkədə biznes əvvəlki rejimdə fəaliyyət göstərir, sanki heç nə baş verməyib.

**İsveçdə yaşayan polşalı idmançı: "Koronavirusa yoluxmuş bir həkim bütün həftə boyu iş yeri olan xəstəxanasında cərrahiyyə əməliyyatları aparmaqda davam edir"**

Polşanın aparıcı triatlon idmançısı Yohanna Soltışyak öz sosial şəbəkə postunda idmançıları İsveçin idman bazalarına dəvət edir. O, yazır ki, İsveçdə bütün ictimai yerlər açıqdır, evdən işləri aparmaq tapşırığı mövcud deyil, müəssisələr bağlanmır, sadəcə, tövsiyələr dərc edilib ki, kim özünü xəstəhal hiss edirsə, sadəcə, evində otursun. İnsanlar ictimai yerlərdə öz aralarında məsafə saxlamamalıdırlar. Bundan əlavə, məlum olub ki, koronavirusla yoluxmuş bir həkim bütün həftə boyu iş yeri olan xəstəxanasında cərrahiyyə əməliyyatları aparmaqda davam edir.

İdmançı yazır: "Müxtəlif situasiyada hərəkət etmək təlimatlarına malik olan ölkə mövcud vəziyyətdə sakinlərin özlərinin qərar verməsi üçün şərait yaradıb".

Bəzi səhiyyə işçiləri deyirlər ki, təhlükəli virusdan daha qorxulusu - "qorxu virusudur". Bu "virus" məcbur edir ki, insanlar vəziyyəti gərginləşdirən hərəkətlərə yol verməlÉrinə sövq edir. Buna baxmayaraq, ölkə rəhbərliyinin təlimatlarına sağlam düşüncə ilə yanaşmaq tövsiyə edilir. Beləliklə, İsveç hakimiyyətinin bu kimi məsələdə nə qədər haqlı olduğunu da zaman göstərəcək. Çünki ortada milyonlarla insanların həyatı və sağlamlığı dayanıb.

***Rövşən RƏSULOV***

# Rəşad Mahmudov: "Hökumətimizin həyata keçirdiyi tədbirlər Azərbaycan vətəndaşının məmnunluğuna xidmət edir"

***Koronavirus infeksiyası (COVID-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması ölkələri daha da ciddi tədbirlər görməyə sövq edir. Dünya Səhiyyə Təşkilatı (DST) koronovirusla bağlı həyəcan təbili çalmamışdan əvvəl Azərbaycan hökuməti bu virusun qarşısının alınması ilə bağlı ilkin tədbirlər həyata keçirib. Bir səhiyyə işçisi kimi qeyd edə bilərəm ki, ölkəmizdə bu istiqamətdə koordinasiya işi çox yüksək səviyyədə qurulub.***



Bu sözləri AZƏRTAC-a Milli Məclisin deputatı, Səhiyyə komitəsi sədrinin müavini, tibb elmləri doktoru Rəşad Mahmudov deyib. Deputatın sözlərinə görə, təkcə Səhiyyə Nazirliyi deyil, bütün dövlət qurumları virusun qarşısının alınması işində fəallıq göstərirlər. Dövlətin sərhəd və gömrük xidmətindən tutmuş qida təhlükəsizliyi idarəsinə kimi bütün sahələrdə ay yarımdan artıqdır ki, profilaktik tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu məsələyə həssas münasibət göstərdiyini diqqətə çatdıran Rəşad Mahmudov vurğulayıb ki, məhz dövlətimizin başçısının tapşırığı əsasında koronavirusla mübarizə və onun qarşısının alınması ilə məşğul olan əlaqədar qurumlar müvafiq plan üzrə işlərini qurublar. "DST Azərbaycanın koronavirusla mübarizədə vəziyyətə nəzarət etməsini yüksək qiymətləndirib. Təşkilat virusa yoluxanları mümkün qədər nəzarət altında saxlamaq, bütün mümkün fəsadlardan yayınmaq məqsədilə ölkənin səhiyyə ocaqlarında profilaktik tədbirlərin təşkili ilə bağlı görülən işlərdən razı qalıb. DST-nın mütəxəssisləri tərəfindən vəziyyətin stabil qiymətləndirilməsi çox müsbət haldır.

Düşünürəm ki, bütün dünyanı bürüyən bu virusun da mütləq çarəsi tapılacaq. Bir həkim kimi koronavirusun dünyada yaratdığı təlatüm qədər ciddi problem olmadığını düşünürəm".

Onun sözlərinə görə, virus xüsusilə, yaşlı və xəstə insanlarda daha çox özünü büruzə verir: "Bir həkim kimi onu deyə bilərəm ki, insan virusa yoluxa bilər, amma o, xəstə deyilsə, ölüm riski yüksək deyil. İmmun sisteminin yüksək olduğu insanların virusa yoluxma riski çox aşağıdır. Əgər hər hansı xəstə ürək-damar çatışmazlığından və ya digər xəstəlikdən həyatını dəyişirsə, bunu koronavirusla əlaqələndirmək düzgün deyil. Ölkəmizdə koronavirusa yoluxanların sayı digər ölkələrə nisbətən çox azdır. Karantində insanlara onа görə saxlanılırlar ki, onlar ailə üzvləri və digər insanlar üçün təhlükə yaratmasınlar".

Deputat təhsil ocaqlarında tədrisin dayandırılmaşına da münasibət bildirib. Qeyd edib ki, bu, çox düzgün verilmiş qərardır. Çünki həyatı təhlükə olmasa belə, ailələr övladlarının taleyi üçün narahatlıq keçirə, psixoloji cəhətdən pis vəziyyətə düşə bilərdilər. "Düşünürəm ki, hökumətimizin həyata keçirdiyi tədbirlər sadəcə, tibbi nöqteyi-nəzərdən deyil, həm də Azərbaycan vətəndaşının, cəmiyyətimizin rahatlığını, məmnunluğunu təmin edən addım kimi dəyərləndirilməlidir", - deyə, Rəşad Mahmudov sözlərini yekunlaşdırıb.

# Sosial iş - həssas qrupların sosial xidmətlərlə təminatında mühüm sahələrdən biridir

***Ötən əsrin 80-ci illərində Sosial İşçilərin Beynəlxalq Federasiyası tərəfindən hər il martın üçüncü çərşənbə axşamı - Ümumdünya Sosial İş Günü kimi elan olunub. Sonralar bir sıra beynəlxalq təşkilatlar da bu təşəbbüsə qoşulub.***




Bu gün Azərbaycanda da sosial iş həssas qrupların bu və ya digər səbəbdən sosial-psixoloji vəziyyətini, məişətini çətinləşdirən və təkbaşına bacarmadıqları problemlərin həllində dövlət dəstəyini nəzərdə tutan sosial xidmətlərlə təminatında mühüm sahələrdən biridir.

Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmətlər sistemində çalışanların bir hissəsi də məhz sosial işçilərdir. Onlar müvafiq kateqoriyalardan olan insanların (tənha ahıl və əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud olan, yaxud sosial təhlükəli vəziyyətdə olan uşaqların, məişət zorakılığından zərər çəkənlərin və s.) sosial xidmətlərə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi, həmin şəxslərə bu istiqamətdə xidmətlərin təşkili istiqamətində fəaliyyət göstərirlər.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, sosial işçilər sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yerini və s. müəyyən edir. Sonra onların tərtib etdikləri fərdi planlar əsasında sosial xidmətçilər tərəfindən çətin həyat şəraitində olanlara sosial-məişət xidmətləri göstərilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun 15 sosial xidmət müəssisəsində 1100-dən çox şəxs daimi dövlət təminatında yaşayır. Həmçinin tənha yaşayan və özünəqulluq qabiliyyəti olmayan 10 minə yaxın ahıl və əlilliyi olan şəxsə evlərində sosial-məişət xidməti göstərilir. Bununla yanaşı, nazirliyin sosial sifarişləri əsasında icra olunan layihələr üzrə son bir ildə 8 mindən çox şəxs reabilitasiyayönümlü sosial xidmətlərlə əhatə olunub.

Azərbaycanda sosial iş sahəsi getdikcə inkişaf edir, eyni zamanda, artıq bir sıra ali təhsil müəssisələrində sosial iş ixtisası üzrə kadrlar hazırlanır.

Bununla yanaşı, "2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya"nın layihəsində qabaqcıl dünya ölkələrinin təcrübəsinə əsaslanan yeni sosial xidmət modellərinin yaradılması və tətbiqi, sosial xidmətlər sahəsində kadr potensialının inkişaf etdirilməsi, ixtisaslı və peşəkar sosial işçilər heyətinin formalaşdırılması və s. də yer alıb. Eləcə də layihədə strateji istiqamətlərdən biri kimi, şəxslərin (ailələrin) çətin həyat şəraitinə düşməsinin qarşısının alınması üçün onların həyatında yaranan problemlərin erkən mərhələlərdə müəyyən edilərək profilaktik tədbirlərin görülməsi məqsədilə yeni kateqoriya sosial işçilərin fəaliyyətinin təşkili də nəzərdə tutulur. Bütün bunlar ölkəmizdə sosial iş institutunun və bu sahədə praktik fəaliyyət sahəsinin təkmilləşdirilməsi istiqamətində gələcəkdə önəmli addımların atılmasını təmin edəcək.

## Türkiyədə iki yol qəzası olub, 58 nəfər yaralanıb

Martın 16-dan başlayaraq Türkiyədə hava şəraiti kəskin pisləşib. Ölkənin şərq hissəsinin bəzi bölgələrində güclü qar yağıb. Qeyri-sabit hava şəraiti həftə boyu davam edəcək. AZƏRTAC xəbər verir ki, havaların qəflətən kəskin pisləşməsi ölkədə böyük problemlər yaradıb. Çox sayda yol-nəqliyyat hadisəsi baş verib. Afyonkarahisarda sərnişin avtobusunun aşması nəticəsində 37 sərnişin, Kayseridə isə şirkət mikroavtobusunun qəza törətməsində 21 işçi yaralanıb.

# Rusiya Dəmir Yolları Azərbaycana reyslərini ləğv edib

Rusiya Dəmir Yolları (RDY) Azərbaycana gedən qatar reyslərini ləğv edib. AZƏRTAC RDY-ə istinadla xəbər verir ki, koronovirusla bağlı yaranmış vəziyyətə görə mart ayının 16-dan etibarən Rusiyanın Azərbaycan və Özbəkistan ilə beynəlxalq dəmir yolu əlaqəsi dayandırılıb.



Məlumatda bildirilir ki, "Özbəkistan Dəmir Yolları" Səhmdar Cəmiyyəti və "Az?rbaycan D?mir Yolları" QSC həmin qərara müvafiq olaraq və yeni koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə martın 16-dan etibarən xüsusi göstəriş verilənə qədər beynəlxalq sərnişin qatarlarının fəaliyyətini dayandırır. Ləğv olunmuş reyslərə alınmış biletlərin pulunu əlavə ödəniş və rüsum ödəmədən geri almaq mümkün olacaq. Sərnişinlər pulun qaytarılması ilə bağlı biletin alındığı dövlətin ərazisində istənilən dəmir yolu kassasına müraciət edə bilər. Elektron gediş sənədlərini isə onların tərtib edildiyi veb-resurslar vasitəsilə təhvil vermək olar.

Xatırladaq ki, Rusiya Dəmir Yolları, həmçinin Çin, KXDR, İtaliya, Latviya, Monqolustan, Çexiya, Polşa, Fransa, Almaniya ilə beynəlxalq sərnişin qatarlarının fəaliyyətini dayandırıb.

# Azərbaycan "CORONA-19"-la mübarizə bir sıra ölkələri üstələyir

*İrəli sürülən tövsiyələr və tətbiq eidlən məhdudiyyətlər vətəndaşların sağlamlığının maksimum tərzdə qorunmasına yönəlib*

***Dünyanı bürüyən koronavirusla mübarizə artıq bəşəriyyətin 1 nömrəli məsələsinə çeçvirlib. Məlum olduğu kimi, müvafiq səhiyyə qurumları, xüsusilə, Ümumdünya Səhiyyə Təşkilatı insanları virusdan qorunmaq yolları istiqamətində tövsiyələrini verib, eləcə də, ayrı-ayrı ölkələrin tibbi presonalları ən yüksək hazırlıq səviyyəsində yoluxma halları ilə mübarizə aparmaqdadırlar. Ümumiyyətlə, qəbul edilən fövqəladə tədbirlər insanlığın belə bir təhlükəli virusdan qurtarmağa yönəlib. Əbəs deyil ki, ayrı-ayrı ölkərdə hava uçuşları dayandırılıb, sərhədlər bağlanıb.***

### İnsanlar, fərdi olaraq, üzərlərindəki məsuliyyət hiss etmələri, özləri ilə yanaşı, ətrafdakıların da sağlamlıqlarına biganə qalamamalıdırlar!

Daha bir məsələ "COVİD-19"-un vaksininin tapılmaması və müalicəsinin olmaması ilə bağlıdır. Artıq bəlli olub ki, hətta dünyanın inkişaf etmiş ölkələri belə virusun qarşısını ala bilmirlər. Bütün bunlara rəğmən, öncəliyi tədbirlər görən ölkələr bu işdə səmərəli fəaliyyət göstərdiklərinə görə, vəziyyəti qənaətbəxş istiqamətində yönləndirə biliblər. Söz yox ki, önləyici tədbirlərin tərkib hissələrindən biri və ən əsası, məhz insanların fərdi olaraq, öz üzərlərində məsuliyyət hiss etmələri, özləri ilə yanaşı, ətrafdakıların da sağlamlıqlarına biganə qalmamaları vacibliyidir. Ən sadə bir misal olaraq, qonşu İranda və Avropanın bəzi ölkələrində - İtaliyada, Fransada, və digər ölkələrdə artan rəqəmləri xatırlamaq olar ki, həmin ölkələr virusla mübarizəyə zamanında qoşulmayıblar. Bu baxımdan, indiki halda, həmin ölkələr daha ağır mübarizə aparmaq məcburiyyətindədirlər. Elə ölkələr də var ki, operativ tədbirlər nəticəsində, koronavirusla mübarizədə yoluxma hallarının qarşısını minimuma endirməyə nail olublar.

Bu ölkələrdən biri də, məhz Azərbaycandır. Belə ki, ölkəmizdə bütün mümkün qabaqlayıcı və operativ tədbirlər həyata keçirilir. Tətbiq edilən karantin faktoruna ciddi şəkildə əməl olunur, habelə, vətəndaşlar da müvafiq dövlət qurumları tərəfindən verilən tövsiyə və tapşırıqları icra etməkdə maraqlıdırlar. Ümumiyyətlə, Azərbaycanda vətəndaş məsuliyyəti kifayət qədər hiss olunmaqdadır. İctimai nəqliyyatda xəstəliyin yayılma imkanları geniş olduğunu nəzərə alaraq, insanlar qoruyucu vasitələrdən daha ciddi istifadə etməli və öz təhlükəsizlik məsələlərinə daha diqqətlə yanaşmalıdırlar, xarici ölkələrdən qayıdan vətəndaşlarımızın karantinə yerləşdirilməsi üçün əlavə yerlər hazırlanır. O da əbəs deyil ki, Azərbaycan sözügedən məsələdə, hətta bir çox ölkələri qabaqlayır.

### Azərbaycanda da daha sərt tədbirlər tətbiq oluna bilər və ictimaiyyət buna hazır olmalıdır

Digər tərəfdən, o da sirr deyil ki, heç bir ölkə və şəxs heç nədən sığortalanmayıb. Buna görə də, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da daha sərt tədbirlər tətbiq oluna bilər və ictimaiyyət buna hazır olmalıdır. Yəni atılan hər bir addım vətəndaşın sağlamlığının qorunmasına yönəlib. Bunu isə hər bir fərd anlayır və təqdir edir. Misal üçün, ÜST-ün də rəsmi məlumatına görə, yaşlı insanlar virusun təsirinə daha tez məruz qalırlar. Buna görə də, onlara xüsusi diqqət və qayğı göstərilməlidir ki, dövlət imkanlarını bu yöndə də istifadə edir. Vətəndaşlara məhdudlaşdırıcı çağırışların olunması, insanların heç bir məcburi səbəb olmadan evlərində oturmaları, kütləvi tədbirlərə, qonaqlıqlara, gəzintilərə getməmələri, ictimai nəqliyyatdan istifadədə kifayət qədər ehtiyatlı olmaları, mağazalarda alış-veriş edərkən, daha etibarlı qorunmaları istiqamətində verilən tövsiyələr də qeyd edilən faktorların tərkib hissəsidir.



### Operativ qərargah da gecə və gündüz davamlı fəaliyyətini həyata keçirir, gündə bir neçə dəfə mövcud vəziyyət və görülən işlərlə bağlı ictimaiyyəti məlumatlandırır

Mühüm məqamlardan biri də budur ki, həyata keçirilən operativ tədbirlərin başlıca məqsədlərindən biri də hökumətin infeksiyanın miqyasının genişləməcəyi ehtimalına daha hazırlıqlı olmasını təmin etməkdir. Reallıq budur ki, virus infenksiyasının qarşısı, hələ ki, alınmır və həmin tədbirlər çərçivəsində daha geniş miqyaslı önləyici tədbirlər planları işlənir.

Artıq Nazirlər Kabineti yanında operativ qərargah da gecə və gündüz davamlı fəaliyyətini həyata keçirir, gündə bir neçə dəfə mövcud vəziyyət və görülən işlərlə bağlı ictimaiyyət məlumatlandırılır. Belə bir vəziyyətdə, onu da qeyd etmək olar ki, hər bir ölkə koronavirusla mübarizə məsələsində ümummilli həmrəylik nümayiş etdirir. Bu isə, çox mühüm bir məsələdir. Artıq Azərbaycanda da bu amilə diqqət yetirilir, bütövlükdə, vətəndaşların təhlükədən qorunmaları istiqamətində maksimum həmrəylik nümayişi sərgilənir.

### Kimlərin barəsində ən sərt tədbirlər görüləcək?

Yeri gəlmişkən, bəzi sui-istifadəçilər, panika və ajiotaj yaradaraq sabotajlara yol verməkcəhdində bulunanlarla da bağlı çox ciddi tədbirlər həyata keçirilir. Artıq bir neçə dəfə müvafiq güc strukturları, hüquq-mühafizə orqanları, eləcə də, NK tərəfindən bəyan edilib ki, belə şəxslər müəyyənləşdiriləcək və onların barəsində ən sərt tədbirlər görüləcək!

Digər tərəfdən, ölkədəki vəziyyətdən istifadə edərək, ərzaq qıtlığı və s. məsələlərdə yanlış mövqe sərgiləyənlər, işbazlar və dələduzluq edənlər barədə də tədbirlərin görüləcəyi kimsədə şübhə doğurmur. Vətəndaşlar panikalara qapılaraq, market və ərzaq dükanlarına kütləvi axın etməklə, sadəcə, həmin işbazların qurbanlarına çevirilirlər. Daha dəqiq desək, səs-küyə düşməklə süni gərginliyin yaranmasına səbəb olurlar. Çünki qida və ərzaq qıtlığı ilə bağlı qəsdən şayiələr yayanlar var və onlar qanun qarşısında cavab verməli olacaqlar. Bu gün hər bir vətəndaş bilməlidir ki, Azərbaycanın ərzaq təhlükəsizliyi təmin olunub və ərzaq məhsulları ilə bağlı qıtlıq yaranması imkanları isə istisna edilir.

Dezinfeksiya işlərinin aparılması üçün də, məişət və iaşə obyektlərinin fəaliyyəti məhdudlaşdırılıb və operativ qərargah tərəfindən müəyyən edilmiş xüsusi qaydaların yerinə yetirilməsi nəzarəti gücləndirilməlib. Bütün bunlar isə ölkəmizin və dünyanın qorxulu virusdan qurtulması üçün atılan vacib addımlardır. Hər bir kəs bu addımların atılmasında öz səmərəsini verməli, ilk öncə, irəli sürülən qaydalara riayət etməklə, dəstəyini əsirgəməməlidir.

*Rövşən NURƏDDİNOĞLU*

## Bahar Azərbaycana nə vaxt gələcək?

2020-ci ildə yaz fəsli Azərbaycana martın 20-si saat 07:49:36-da daxil olacaq. Bu barədə AZƏRTAC-a AMEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib. Bildirilib ki, bu zaman gecə ilə gündüz bərabərləşəcək. Günəş ekliptika üzrə hərəkət edərək cənub yarımkürəsindən şimal yarımkürəsinə keçəcək və həmin andan şimal yarımkürəsində yaz fəsli başlayacaq.




## Azərbaycanın İsveçdəki səfirliyi COVID-19 virusunun yayılması ilə bağlı həmyerlilərimizə müraciət edib

Azərbaycanın İsveç Krallığındakı səfirliyi COVID-19 koronavirusunun dünyada geniş yayılaraq həmyerlilərimizin də həyat və sağlamlığına təhlükə yaratdığı üçün təmsil olunduğu ölkələrdə yaşayan azərbaycanlılara müraciət edib.



AZƏRTAC-ın xüsusi müxbirinə verilən məlumata əsasən, yaranmış vəziyyətlə əlaqədar səfirlik, İsveç ilə yanaşı həm də Norveç Krallığı və Finlandiya Respublikasında yaşayan, təhsil alan və müvəqqəti olaraq səfərdə olan vətəndaşlarımızın mümkün müraciətlərinin operativ şəkildə cavablandırılması məqsədilə qaynar xətt yaradılıb. Beləliklə +46 76 201 69 57 nömrəli telefona zəng edərək, həmyerlilərimiz yaranmış vəziyyətlə bağlı səfirliyə həftənin 7 günü 24 saat ərzində müraciət edə bilərlər. Yaranmış epidemioloji vəziyyətlə əlaqədar səfirliyin konsulluq şöbəsi məhdud rejimdə fəaliyyət göstərdiyi üçün, təcili konsulluq məsələləri ilə bağlı həmvətənlərimiz stockholm@mission.mfa.gov.az elektron poçt ünvanına müraciət edə bilərlər.

## Bayram yarmarkalarında dezinfeksiya işlərinə xüsusi diqqət yetirilir



Kənd Təsərrüfatı Nazirliyi tərəfindən paytaxtda 5 məntəqədə - Yasamal, Binəqədi, Nərimanov və Suraxanı rayonlarında bayram yarmarkaları təşkil olunub. Bir yarmarka isə Abşeron rayonunda fəaliyyət göstərir. AZƏRTAC xəbər verir ki, bunu "Aqrar Tədarük və Təchizat" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Aqil Quliyev martın 17-də Novruz bayramı yarmarkaları keçirilən ərazilərdə aparılan dezinfeksiya işləri ilə bağlı jurnalistlərə müsahibəsində bildirib.

Onun sözlərinə görə, kənd təsərrüfatı yarmarkalarının keçirilməsində əsas məqsəd bayram ərəfəsində şəhər əhalisinin kənd təsərrüfatı məhsullarına artan tələbatının ödənilməsi, eyni zamanda, fermerlərimiz üçün alternativ satış məkanlarının yaradılmasıdır.

ASC sədri yarmarkalarda bir çox regionlardan fermerlərin iştirak etdiyini, hazırda isə 200-ə yaxın fermerin satışa 60-a yaxın məhsul çıxardığını qeyd edib: "Yarmarkalarda fermerlər üçün bütün zəruri şərait yaradılıb. Buna görə də, yarmarkalardakı qiymətlər digər satış məntəqələrindəki qiymətlərdən daha münasibdir. Bundan başqa, "Kənddən şəhərə" mağazaları da fəaliyyət göstərir ki, həmin mağazalarda da vətəndaşlarımız bayram bazarlığı edə bilərlər. Bu mağazalar Bakı şəhərinin Nizami küçəsi və Əhmədli qəsəbəsində yerləşir".

A.Quliyev diqqətə çatdırıb ki, vətəndaşlar üçün birbaşa onlayn qaydada satış imkanları da mövcuddur. Belə ki, kənddən-şəhərə.az saytı vasitəsilə istədikləri məhsulları onlayn sifariş edə bilərlər. Bu zaman 20 manatdan artıq alış-veriş etdikləri təqdirdə pulsuz çatdırılma da təmin olunacaq.

Yarmarkalarda həyata keçirilən profilaktik tədbirlərdən danışan ASC sədri qeyd edib ki, bu məsələyə xüsusi diqqət yetirilir, satıcılar tibbi ləvazimatlarla, əlcəklə və dezinfeksiya vasitələri ilə təmin olunublar. Bayram günləri müddətində yarmarkalarda heç bir dəyişiklik olmayacaq. Dezinfeksiya işləri hər gün aparılır. Qeyd edək ki, bayram yarmarkaları Yasamal rayonu, Hüseyn Cavid prospekti ilə Seyfəddin Dağlı küçəsinin kəsişdiyi ərazidə (225 saylı orta məktəbin qarşısı, Space TV-nin yanı), Binəqədi rayonu, Süleyman Sani Axundov 5B ünvanında (İnqilab kinoteatrının yanı), Nərimanov rayonu, metronun "Gənclik" stansiyasının yaxınlığında, Xırdalan şəhəri, Heydər Əliyev prospekti 41A ünvanında və Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev ilə Etibar Bəkirli küçələrinin kəsişdiyi ərazidə (Neftçilər parkının yanı) fəaliyyət göstərir.

# Ermənilər can, Paşinyan da "piy" hayında



***Bu gün dünyanı ağuşuna alan koronavirus işğalçı ölkənin baş naziri Nikol Paşinyanın ürəyindəkiləri yarımçıq qoyur. Və bu virusun baş alıb getməsi, həmçinin, Ermənistanda ərzaq çatışmazlığına səbəb olsa da, Paşinanı bir məsələ, oturduğu kreslosuna "əlvida" deməmək üçün, nəyin bahasına olursa-olsun "referendium keçirilməlidir".***

Bu barədə "Sputnik Armeniya"nın məlumatına görə, ölkədə spirt gelinin çatışmazlığına səbəb vətəndaşların ehtiyat üçün almasıdır. Ermənistanın İqtisadi Rəqabətin Müdafiəsi üzrə Dövlət Komissiyasının sədri Qeqam Gevorkyan isə, martın 13-də jurnalistlərə bildirib ki, zərərləşdirici vasitə və maskaların qıtlığı var. Onun sözlərinə görə, vətəndaşlar istifadə etdiklərindən daha artıq sayda maska alırlar: "Bu isə qıtlıq yaradır. Məktəb və ali təhsil ocaqlarında dərslərin başlayacağı dövr üçün ehtiyat məqsədilə alırlar. Spirt yerli istehsalat olduğundan, onun qiyməti bahalaşmayıb. Ancaq maskaların qiyməti bahalaşıb".

## Karen Bekaryan: "Qarabağ münaqişəsinin həll prosesi baxımından, açıq bir xaotik vəziyyətə sahibik və bu xaotik vəziyyətdə it yiyəsini tanımır"

Erməni siyasi təhlilçi Karen Bekaryan bildirib ki, bütün bunlar ölkənin baş naziri Nikol Paşinyanın siyasi savadsızlığı ilə bərabər, həm də xalqa qarşı biganəliyidir: "Məhz bütün bunlar Paşinyanın və xarici işlər nazirimizin sükutu, laqeydliyi halında baş verir. Profilaktik iş yoxdur, vəziyyətə nəzarət etmirlər, hər şeyə barmaqlarının arası ilə baxırlar".

Yaranmış vəziyyət onu göstərir ki, aprelin 5-də keçiriləcək qondarma DQR-də Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altındakı bölgəsində qanunsuz prezident seçkisi keçirmək istəyi ürəyində qalacaq. Çünki həm ölkəni, həm də erməni mətbuatının məlumatına görə, Paşinyan və həyat yoldaşı virusdaşıyıcısı ola bilər.

Lakin Nikol Paşinyan bunu anlamır və anlamadığı üçün də xarici siyasi arenalarda uğradığı diplomatik məğlubiyyətləri və ölkədaxili nüfuzunun sürətlə aşağı düşməsi faktı, nəticədə, xalqın iradəsi əleyhinə referendumun keçirilməsi qərarı onun küçədən birbaşa yiyələndiyi hakimiyyət kreslosuna əlvida deyilməsini tezləşdirəcək. Necə deyərlər"qaş düzəltdiyi yerdə, vurub göz çıxaracaq". Paşinyan üçün virus əsas məsələ hesab olunmur, onu vəzifə kürsüsü maraqlandırır. Belə olan halda...

## Paşinyan referendum vasitəsi ilə nəyə, kimlərə və ya hansı "strategiyasına" ümid edir?

Göründüyü kimi, işğalçılıq siyasətindən əl çəkməyən Paşinyan, məhz referendum keçirməklə, hakimiyyətinin ömrünü uzatmağa cəhd edərək, qarşılaşdığı məğlubiyyətlərini ört-basdır etməyə çalışır. Əbəs deyil ki, məlum Münhen məğlubiyyətinin ardınca, Ermənistanın bir sıra ictimai-siyasi xadimləri, politoloqları, hətta sadə vətəndaşları tərəfindən məsxərəyə qoyulan erməni baş nazir xilas yolunu, məhz aprelin 5-də keçiriləcək referendumda axtarır. Bu yerdə sual yaranır: Paşinyan referendum vasitəsi ilə nəyə, kimlərə və ya hansı "strategiyasına" ümid edir? Əslində, erməni baş nazirin çıxış yolu, ümumiyyətlə, qalmayıb. Çünki onun referendum keçirmək haqqında parlamentdə qəbul etdirdiyi (!) qərar xalq tərəfindən, habelə, aktiv fəaliyyət göstərən çoxsaylı siyasi-ictimai təşkilatlar tərəfindən qəbul olunmur, əksinə, rədd edilir. Məsələn, Ermənistanın tanınmış ictimai-siyasi klubu hesab edilən "Vernantun" bu günlərdə bəyanat yayıb və həmin bəyanatında ölkə konstitusiyasında ediləcək dəyişikliklərlə bağlı keçirilməsi nəzərdə tutulan referenduma qarşı çıxış edib. Kifayət qədər sərt və kəskin ifadələrlə müşayiət olunan bəyanatda bildirilir ki, aprelin 5-də təşkil olunan referendum anti-konstitusion, qanunsuz və xalq əleyhinədir: "Referenduma konstitusiyanın artıq qüvvəsini itirmiş 213-cü maddəsində dəyişiklik məsələsi qaldırılıb. Bu, hüquqi mənada, nonsensdir. Referendumun keçirilməsi qərarı həm tərkibinə görə, həm də formasına görə həssasdır. Hakimiyyət parlament çoxluğunu bu kimi antikonstitusion prosesə cəlb edib və indi də Ermənistan vətəndaşlarını da həmin prosesə cəlb etməyə məcbur edir".



Politoloq Tofiq Abbasov bildirib ki, Ermənistanda narahatedici təlatümlər yaşanır: "Siyasilər Qarabağ avantürasının tələsindən çıxa bilmirlər. Planlaşdırılırdı ki, fevral ayında Qarabağdakı qondarma rejim "seçki" şousu təşkil etsin və separatçılar özlərinə yeni "lider" seçsinlər. Ancaq vəziyyət tamam dəyişib və düşmən tərəf qəti şəkildə dərk etməlidir ki, işğal olunmuş Azərbaycan torpaqları hər metrinə qədər ermənilərdən geri alınacaq. Bunun alternativi yoxdur. İstənilən zaman antiterror əməliyyatına başlaya bilərik və buna qadirik".



Bu gün koronavirusa adi baxan Paşinyan bilməlidir ki, koronavirusdan da güclü Azərbaycan Ordusu var. Çünki ermənilər yaxşı bilirlər ki, Azərbaycan Ordusu ən yaxın zamanlarda onların ağalıq elədikləri torpaqları milli və dövlətçilik mənsubiyyətinə qaytaracaqdır. Belə olan halda, qondarma "Dağlıq Qarabağ"da seçkilərdə nələr ola bilər" sualının nəticəsini də yaxşı anlayırlar ki, Azərbaycan Ordusu Paşinyana koronavirusdan da pis hadisəni, yəni ikinci aprel hadisəni yaşada bilər. Paşinyan bilməlidir ki, Azərbaycan yaxın bir neçə il ərzində, artıq digər yollarla öz ərazi bütövlüyünü bərpa edəcək və Paşinyanın, arzusunda olduğu işğal olunmuş ərazilərimizdə qondarma "Dağlıq Qarabağ"da qondarma seçkilər keçirmək arzusu ürəyində qalacaq.



Çünki bu gün erməni xalqı öz canının hayındadır, Paşinyan isə "piy" axtarışında. Xüsusilə də, Paşinyanın erməni əsgərlərin intiharını bazara bənzətməsi əsgər analarının etirazlarına səbəb olub.

## Armen Xazaryan: "Paşinyan, rədd olun Qarabağdan!"

Erməni bloger Armen Xazaryan öz video-açıqlamasında Paşinyanın Münhen görüşündə səsləndirdiyi fikirlərə münasibət bildirərkən, "Paşinyan, rədd olun Qarabağdan!" deyib.

"Bəs siz Qarabağın azərbaycanlı əhalisinin fikirlərini soruşdunuzmu? İlk dəfə azərbaycanlılara atəş açan və onları qovan da sizsiniz. O zaman onların fikirlərini soruşdunuzmu?" - bloger deyib.

Göründüyü kimi, bütün bu faktlar onu göstərir ki, erməni xalqı ikiüzlü, savadsız və faşisit xislətli Paşinyanı görmək istəmir.

Azərbaycan lideri qurumun nüfuzunun aşağı düşməsinin əsas səbəbinin orada hökm sürən riyakarlığın, ikili standartların və ədalətsizliyin olduğunu açıq şəkildə bəyan edib.

Məhz bu hal da, kifayət qədər qənaətə gəlməyə zəmin yaradır ki, referendum oyunu erməni baş nazirin növbəti siyasi fırıldağı olaraq qalacaq və xalqın həmin refrerenduma gedəcəyi, artıq diktator adlandırılmağa başlanılan Paşinyanın hakimiyyətinin uzadılmasına "hə" deyəcəyi arzusu isə, Nikolun ürəyində qalacaq.

**A.SƏMƏDOVA**

# Mais Səfərli: "Əli Kərimlinin fəaliyyəti blogerlikdir"



**Müxalifətdaxili qarşıdurmalar və intiriqalar fonunda "Milli Şura"nın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli bütün mümkün vasitə və üsullardan istifadə etməklə diqqət mərkəzinə çevrilməyə çalışırlar. Hətta sosial şəbəkələrdə iyrənc metodlardan istifadə edən Ə.Kərimli bununla siyasətçidən daha çox blogerliklə məşğul olduğunu nümayiş etdirir.**

"Yurddaş" Partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında bildirdi ki, adları çəkilən müxalif qüvvələrin əsas fəaliyyəti blogerlikdən ibarətdir: "Onların əsas fəaliyyətləri sosial şəbəkələrdə siyasətə aid olmayan məsələlərlə çıxış etmələridir. Siyasi fəaliyyət nədir? Bunun geniş anlayışı şəxslər normal siyasi fəaliyyətlə məşğul olsaydılar, dağılmaqda və əldən getməkdə olan partiyalarının strukturlarının bərpası ilə məşğul olardılar, yaxud partiyalarında yenidənqurma işləri aparardılar: "Yəni bu şəxslərin məşğul olduqları bir şey var ki, o da, sosial şəbəkələrdə çıxışlar etməkdən ibarətdir. Demək olar ki, sosial şəbəkələrdə onlar tərəfindən səslənən anormal çıxışların əksəriyyəti Azərbaycan dövlətini sevməyən qüvvələrin dəyirmanına su tökmək deməkdir. Radikal düşərgədə özlərini siyasətçi adlandıran bu şəxslərin əksəriyyətinin çıxışları, yalnız özlərinin vəziyyətlərini daha da ağırlaşdırmış olur. Yaxşı olardı ki, onlar bu cür anormal hərəkətlərindən əl çəksinlər".

M.Səfərli onu da bildirdi ki, müxalifət yasi nəzəriyyələrdə və kitablarda öz əksini tapıb. Bundan ciddi siyasətçilər məlumatlıdırlar. Hər bir partiya və siyasi qurum, adətən, özünün ideologiyasına uyğun şəkildə hansısa təbliğat aparır. Amma gördüyünüz kimi, bunlar elə hər hansı bir məsələnin ucundan tutub, sosial şəbəkələrdə çıxış etməyə, nitqlər söyləməyə hazırdırlar, əslində, bunun siyasi fəaliyyət ilə heç bir əlaqəsi yoxdur. Əslində, Ə.Kərimlinin və digərlərinin siyasətlə heç bir bağlılıqları da yoxdur. Bir sözlə, sosial şəbəkələrin ulduzuna çevrilməyə çalışan "Milli Şura"nın sədri C.Həsənli və AXCP sədri Ə.Kərimli, bununla, siyasətçidən daha çox, blogerlik missiyasını yerinə yetirirlər". M.Səfərlinin sözlərinə görə, əgər doğrudan da, adları çəkilən bu tıb özünü yuxuda hakimiyyətə gələn görür: "Onların yatıb yuxuda gördükləri elə yuxu olaraq da qalacaqdır. Müxaliflərin hakimiyyətə gəlmək şansları sıfıra bərabərdir. Çünki xalq tərəfindən müxalifətin heç bir dəstəyi yoxdur. Demək olar ki, bu gün müxalifətin işi ancaq ağa qara deməkdən ibarətdir. Ona görə də, müxalifət Azərbaycan dövlətinin uğurlarına paxıllıq edir və bu uğurlara kölgə salmaq istəyir. Bir sözlə, paxıllıq, qısqanclıq hissi onlara imkan vermir ki, uğurlarımıza və inkişafımıza sevinsinlər. Amma heç vaxt müxalifət təmsilçilərinin ölkəmizlə bağlı məkrli planları baş tutmayıb və bundan sonra da tutmayacaqdır".

**GÜLYANƏ**

# Oğurladıqlarını onlayn alış-veriş saytlarında satan şəxs tutulub



**Binəqədi rayonu ərazisində ayrı-ayrı şəxslərə məxsus əsasən "VAZ 2121" markalı avtomobillərin şüşəsini sındıraraq oğurluq edən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, zərərçəkənlərdən daxil olan çoxsaylı şikayətlər əsasında Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsi əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbiri nəticəsində oğurluq etməkdə şübhəli bilinən Bakı şəhər sakini Əli Kazımov tutulub.**

Qeyd edək ki, saxlanılan şəxs avtomobillərdən oğurluq edərkən ərazidə olan kameralar vasitəsilə də onun əməlləri lentə alınıb. Əli Kazımov ifadəsində bildirib ki, "Niva" markalı avtomobillərdən oğurladığı səs gücləndirici, maqnitafon və s. əşyaları onlayn alış-veriş saytlarında satışa çıxarıb. Faktla bağlı saxlanılan şəxs barəsində 5-ci polis bölməsində toplanan materiallar Binəqədi Rayon Polis İdarəsinin istintaq şöbəsinə göndərilib, araşdırmalar davam etdirilir.

# Hacıqabulda ölümlə nəticələnən yol qəzası olub



Hacıqabulda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Hacıqabul şəhəri ərazisində Ağdam rayon sakini T.İmanov idarə etdiyi "VAZ-21015" markalı avtomobili qarşıda gedən "KamAZ" markalı avtomobilə vurub. Nəticədə sərnişini Ağdam rayon sakini Çingiz İmanov aldığı xəsarətlərdən hadisə yerində ölüb. Hadisə ilə bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

# Sevinc Osmanqızı - Əli Kərimlinin "kəpənəyi"

## Yaxud AXCP sədrinin onun canlı yayımlarının pərdəarxası məqamları



**Bu gün sosial şəbəkələrdə onun-bunun sifarişlərini canla-başla həyata keçirib, əvəzində, böyük məbləğdə dollar və avro əldə edənlərə, Vətəninin maraqlarını amerikan, ingilis və s. ölkələrin xəfiyyələrinə bir gecəlik yataq əşqinə satanları əxlaqsız və mənəviyyatsız adlandıranda, başlayırlar "qara məni basınca, qoy qaranı mən basım" deyə fəryad qoparırlar. Bununla da, atalar sözündə olduğu kimi, özlərini "aydan arı, sudan duru" hesab edirlər.**

Bu dediklərim Sevinc Osmanqızınadır! Bir fərd ki, öz ailəsinə, soyadına qarşı xəyanət edirsə, ondan hər cür rəzillikləri, riyakarlıqları, ləyaqətsizlikləri gözləmək mümkündür. Ümumiyyətlə, nəinki milli maraqları, eləcə də, vicdanını, mənəviyyatını, ləyaqət və şərəfini, hətta ailə maraqlarını (!) pula satan S.Osmanqızı o qədər mənəviyyatsızdır ki, zaman-zaman Azərbaycan dövləti tərəfindən mənzillə mükafatlandırılan jurnalistləri də çirkin niyyətinin hədəfinə çevirib. Onun ardınca, ölkədə keçirilən seçkilərlə bağlı həftənin 7 günü AXCP sədri Əli Kərimlini qondarma internet televiziya kanalı olan "Osmanqızı TV"-yə çağıraraq, bir daha eyni simaya malik olduqlarını nümayiş etdirməkdədirlər. Nədir onun bu məsələlərdəki maraqları? Bəllidir - bu gün Azərbaycan dövlətinin çörəyini yeyən, Vətəninin suyunu içən hər kəs Sevincə və onun kimi siyasiləşmiş qrant vassalları adət etdikləri çirkin əməllərdən əl çəkə bilmirlər. S.Osmanqızı elə zənn edir ki, onun "TV"-sində Ə.Kərimli kimi satqınların çıxışı parlamenti, hökuməti və hakimiyyəti belə müxalifətin iştirakı ilə "formalaşmalıdır".

### Əxlaqsızlıqla bir arada yaşamaq çətindir

Bu danılmaz faktordur. Çünki mədəniyyətsizliyə də, cahilliyə də göz yumub bir təhər onunla yanaşı yaşamaq olar, amma əxlaqsızlıqla bir arada yaşamaq çox çətindir. Amma əxlaqsızın əxlaqsız yanında yaşaması absurddur. Görünür, S.Osmanqızı əxlaqsızlığa "şəxsi həyatımdır" deyib haqq qazandırmaqla, özünə layiq olan Ə.Kərimlini öz "TV"-sində görməklə, çox "qürur" duyur.

Özünü tərəfsiz, "xalq fədaisi" kimi Azərbaycan cəmiyyətinə sırımaq istəyən bu mənəviyyatsızın Amerikaya hansı yolla, necə gedib çıxmasına dair internet resurslarında yüzlərlə faktlar var. Hansı ki, S.Osmanqızı o faktların, iddiaların heç birinə tutarlı arqument gətirməməklə və obyektiv münasibət bildirməməklə deyilənlərin heç də təsadüfi olmadığını nümayiş etdirib. Ən maraqlı məqam isə, son vaxtlar S.Osmanqızının "jurnalistliyi" bir kənara atıb radikal müxalif çağırışları ilə ad çıxaran AXCP-yə, daha dəqiq desək, həmin partiyanın sədri Ə.Kərimliyə mətbuat katibliyi etməklə məşğul olmasını, son dövrlər efirə hazırladığı videolardan, təşkil etdiyi müsahibə və müzakirələrdən aydın sezmək olur.

### İlqar Məmmədov: "Sevinc Osmanqızı xəbərçilikdə kimsəni irəli buraxmaz"

"REAL" Partiyasının sədri İlqar Məmmədov "Facebook"dakı şəxsi profilində status yazaraq, S.Osmanqızını xəbərçilikdə birincilərin birincisidir deyib: "S.Osmanqızı, öz adına layiq olan satqın və əxlaqsız Ə.Kərimli ilə eyni mövqedə olması və bir partiyanın mətbuat katibi olmaqla yanaşı, həm də aktiv xəbərçidir. Xalqın üzünə yalan danışmağı bacaran və özünü "jurnalist" sayan heç zaman xalqın dərdinə yaramaz".

Bəli, S.Osmanqızının qeyri-obyektiv, qərəzli, konkret şəxsin və ya şəxslərin xeyrinə təbliğat aparmasına dair iddialar, yalnız İ.Məmmədovun yazdıqları ilə bitmir. Hazırda Avropada yaşayan və "Oyan Hərəkatı" idarə heyətinin üzvü olan Nahid Cəfərov da yazdığı statusda AXCP sədri Ə.Kərimlinin ruporuna çevrilmiş S.Osmanqızını ifşa edib. Bildirib ki, S.Osmanqızı milləti yalanlar tirajlamaqla barmağına doladığını düşünür. Onun fikrincə, xalqın üzünə yalan danışmağı bacaran bir "jurnalist" heç zaman xalqın dərdinə yanmaz. N.Cəfərov Ə.Kərimli və S.Osmanqızını xatakar "disliker bütpərəstlər" kimi qələmə verib. N.Cəfərov daha sonra yazıb ki, S.Osmanqızı birbaşa canlı yayım zamanı Ə.Kərimli bütünü tənqid edən vətəndaşların səsini kəsir, guya "xətdə problem var" bəhanəsi ilə dərhal onun efirə qoşulmasına mane olur. N.Cəfərov digər bir statusunda S.Osmanqızı ilə yanaşı, Qənimət Zahidin, Natiq Adilovun fotolarını paylaşaraq, qeyd edib ki, məhz jurnalistikaya, liberal dəyərlərə və söz azadlığına ləkə olan bu "jurnalistlər" tərəfindən AXCP sədri "siyasi lider" kimi təqdim olunur. Onun qənaətincə, bu "jurnalistlər" xalqı düşünmür, həqiqətlə maraqlanmır və dəyərləri müdafiə etmirlər.

### Qurban Məmmədov: "Əli Kərimli, Cəmil Həsənli və Sevinc Osmanqızı bir mafiya və gədalardır"

"Azərbaycanda və sosial şəbəkələrdə mənim əleyhimə danışan bütün səhifələri, kanalları Ə.Kərimli alıb əlinə və idarə edir. Ə.Kərimli həqiqi gədədir"- bu fikirləri "AzeriFreedom" kanalının təsisçisi və rəhbəri Qurban Məmmədov bildirib: "Ə.Kərimli həqiqi gədədir. Onun şəxsiyyəti olsa, özünü belə aparmaz. Artıq sifəti açılıb deyə, mahiyyəti üzrə açılır. "Osmanqızı TV"ni Ə.Kərimlinin reklam kanalına çevirən, Birləşmiş Ştatların əyalətlərində qapı-qapı gəzib, ütü və ya tava satan kommivoyajerin yeni formasiyalı "divanda maqazin" halına salan xanım Osmanqızı nə etdiyinin, daha doğrusu, nəyi necə etdiyinin fərqində deyil. 26 illik "siyasi müxaliflik" stajı olan və cüzi uğuru belə, gözə dəyməyən Ə.Kərimli, məhz bu xanımın sayəsində kitab rəflərinin önündə sürəkli əl-qol ölçən, mimik jestlərlə nəsə anlatmağa çalışan adama çevrilib".

Bax, budur satqınların formalaşmış siması. ABŞ-a sığınmış Sevinc Osmanqızı kimi əxlaqsızlar "YouTube" kanalında parlament seçkilərindən sonra mitinqlərdən bəhs edərək, "hakimiyyətin əzab verdiyi xalq"dan danışanda, belələrini necə də əxlaqsız adlandırmayasan?

Bu yerdə YAP İcrpa katibinin müavini, millət vəkili Siyavuş Novruzovun dediyi fikirlə sözümü bitirmək istərdim: "Əli Kərimli ilə Sevinc Osmanqızının qibləsi Qərbdir".

Bunu deməklə, bildirmək istəyir ki, onların münasibətləri... S.Osmanqızı Ə.Kərimlinin "kəpənəyi"dir. Lakin onun qonduğu budaq heç də sağlam budaq deyil- zərərli və zəhərli dəvəkitanı qanqalıdır.

**Rəfiqə HÜSEYNOVA**

# Mayası xəyanətlə yoğrulanlar

## *Əli Kərimlinin "xəyanət xəyanəti gətirər" prinsipi*

**Azərbaycanın güclənməsini istəməyən və onun uğurlarını həzm edə bilməyən anti-Azərbaycan dairələr bütün qüvvələrini cəmləşdirərək seçkidən sonra yenidən ölkəmizə qarşı "qara piar" kampaniyası aparmaqla yanaşı, yeni məkrli planlar hazırlayıb, onları reallaşdırmaq üçün min bir oyundan çıxırlar. Bu məqsədlə AXCP sədri Əli Kərimli və "Milli Şura"nın sədri Cəmil Həsənli kimi satqınlar hər gün bir cinayətkarın, Vətən xaininin adını ya "siyasi məhbus" qoyur, ya da "siyasi mühacir" adı ilə Azərbaycana qarşı böhtan və şər yağdırmağa başlayırlar.**



İndi də sosial şəbəkələrdən çıxışlar edərək, Novruz bayramı ərəfəsi ölkə rəhbərinin cinayətkarların "əfv olunması" çağırışını etməsi bir daha bu əxlaqsızların əsl simasını göstərir. Məqsəd də xarici qüvvələrə nökərçilik etməklə, qrantlar qoparmaqdır. Yenə də qəribəsi odur ki, qranta görə qaşınmayan yerdən qan çıxarmağa çalışan AXCP sədri Azərbaycanın uğurunu həzm edə bilmir. Bax, bu yerdə necə deməyim ki, səsiniz batsın!!! Xəstə, mafiozdan nə gözləmək olar? Ölkəmizin uğurlarına qısqanclıqla yanaşan avropalı deputatlar da qanmağa məhkumdurlar ki, Azərbaycan Avropa qədər zəif deyil ki, vətəndaşlarımız siyasi mövqeyinə görə şərlənib həbs edilsin. Belədir, ya yox, cənab misterlər?

Ancaq Ə.Kərimli kimi sosial şəbəkə xəstələri, unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyəcəklər və gec-tez, bu yalan və böhtanlar sonda ifşa olunur. Çünki belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlanmır.

İstər həmin məkrli dairələr, istərsə də onların maşasına çevrilən bu xəyanət-kar ünsürlər unudurlar ki, hansısa gedişlərlə özlərinin məkrli niyyətlərini örtbasdır edə bilməyəcəklər. Çünki sular durulduqca, bəzi qaranlıq mətləblərə işıq düşdükcə, ermənilərlə və anti-Azərbaycan dairələrlə işbirliyində olan bu üzdəniraq "söyüş makinaları"na qarşı ictimaiyyətimizin nifrəti daha da artır. Ona görə ölkəmizdə sabitliyi, inkişafı istəməyən, milli maraq və mənafelərimizə zərbə vurmağa çalışan, xalqımızın milli-mənəvi və əxlaqi dəyərlərini hədəfə alan daxili və xarici qüvvələrin öz niyyətlərini həyata keçirmələrinə heç vəchlə imkan verilməyəcək.

**"Xəyanət xəyanəti gətirər" prinsipi Kərimlinin siyasi kimliyinə artıq son qoyub**

Ancaq Ə.Kərimli bilməlidir ki, xalqın, dövlətin qarşısında onun qorxusu böyükdür. Haqq naminə, bəzi məqamları xatırlatmaq istərdik. Yadındarısa, sən dövlət katibi olduğun dönəmdə daxili işlər naziri İsgəndər Həmidov "İstiqlal" qəzetinin baş redaktoru Zərdüşt Əlizadəni kabinetində döyüb, külqabını başına çırpmış, daha sonra qəzetin bir nüsxəsini ona yedirtmişdi. Əbülfəz Elçibəy nə qədər təkid etsə də, İ.Həmidov jurnalistdən üzr istəmədi. Nazirə gücü çatmayan Əbülfəz Elçibəy əlacsız qalıb Z.Əlizadədən özü üzr istədi.

Belə hadisələr bir deyil, iki deyil. Bu gün Ə.Kərimli, nəyə əsaslanıb "ədalətdən və qanundan" danışırsan? Azərbaycan demokratik- hüquqi və dünyəvi dövlətdir. Siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Əlbəttə ki, Azərbaycan dövlətinin rəhbərliyi ilə həyata keçirilən strateji kurs özündə millətin və dövlətin mənafeyinə cavab verən ən ali prinsipləri və normaları ehtiva edir.

Ona görə də, erməni xislətli satqın, əxlaqsız Ə.Kərimli, bir faktı yüz müstəviyə yüksəldib, inikas etdirərək, siyasiləşdirmək, məntiq eybəcərliyini ədalət axtarışı kimi qələmə verməklə sənin vicdansız, cinayətkar və satqın olduğunu sübuta yetirir. Bu kimi sosial şəbəkələrdə avantürist çıxışlarınla "aydan arı, sudan duru" olduğunu göstərməyə çalışma! Etdiyin xainlik tarixi heç vaxt unudulmayıb. Yaxın zamanlarda etdiyin cinayətlərin qanun və xalq qarşısında cəzasını çəkəcəksən! Lüzumsuz çağırışlarınız da küt baltalar kimi, nəticəsiz olacaq.

***Rəfiqə HÜSEYNOVA***

# Müsavat: "Gültəkin Hacıbəyli trol, Əli Kərimli isə faydasızdır"

Ölkəmizdə parlament seçkilərinin başa çatmasının üzərindən bir aydan artıq vaxt keçməsinə rəğmən, özlərini "ənənəvi düşərgənin lider" təşkilatı adlandıran "Milli Şura" üzvləri hələ də seçkilər zamanı "boykot" taktikasının guya ki, yararlılığı barədə həmdən-həmə, dəmdən-dəmə cəhdlər edirlər. Hətta bu mövzunu sosial şəbəkələrdə trolları vasitəsi ilə gündəmdə saxlamaqla, seçkilərdə iştirak edən digər müxalifət partiyalarını hədəfə alır, onları müxalifətçiliyə xəyanətdə ittiham edirlər. Əslində, sözügedən metod, daha öncə, "REAL" partiyasına tətbiq olunsa da, qarşı tərəf başda AXCP sədri Əli Kərimli olmaqla, onların cavablarını sərt şəkildə vermişdilər. Məsələn, "Milli Şura"nın koordinasiya şurasının üzvü Eldəniz Quliyev "Real"çıları təhqir etsə də, partiya funksioneri N.Cəfərli ona işarə vurmuşdu ki, o, Ə.Kərimlinin "fas" deyən "itidir", kimin üzərinə qısqırdırsa, onlara da hücum edir...

### <u>Səxavət Soltanlı:</u> "Xalq bizi eşitdi, seçkiyə getmədi" demək trolluğun növbəti mərhələsidir"



Beləliklə, "REAL"dan bir şeyin çıxmadığını görən "Milli Şura" və cəbhəçilər son da əzəli və əbədi düşmənləri olan müsavatçıları da xatırlayıblar. Trolların cavablarına uyğun cavab verən Müsavat partiyasının başqan müavini Səxavət Soltanlı "Facebook" vasitəsi ilə bu dəfə koordinasiya şurasının digər üzvü Gülktəkin Hacıbəyliyə sərt cavab verib. Xatırladaq ki, G.Hacıbəyli "Xalq bizi ("Milli Şura"nı-R.R.) eşitdi, seçkilərə getmədi" atmacasını atmışdı. Beləliklə, müsavatçı funksioner cavab verib ki, seçki dövründə "evlərində oturub" seçkidən sonra "xalq bizi eşitdi, seçkiyə getmədi" demək trolluğun növbəti mərhələsidir".

S.Soltanlı AXCP-yə və Ə.Kərimliyə də söz atmağı unutmayıb və deyib ki, siyasi təşkilat və siyasi lider laqeyd çoxluğun dalıyca sürünərək deyil, çoxluğu arxasıyca aparmağa çalışarkən, faydalı olur.

### <u>Mustafa Hacıbəyli:</u> "Mədhiyyə deyib imtiyaz və mandat sahibi olanlar indi bizə "prinsipiallıq" dərsi keçirlər"

Məsələyə yalnız S.Soltanlı deyil, eyni zamanda, partiyanın mətbuat xidmətinin rəhbəri Mustafa Hacıbəyli də qoşulub və yazıb ki, son seçkidə 19 partiya iştirak edib, amma Azərbaycanda 50-dən çox partiya var. AXCP olsa-olsa seçkidə iştirak etməyən 30-dan çox partiyadan biridir. Bu sırada KXCP, AXP və "Haqq-ədalət" partiyaları da var: "Ömründə bir dəfə meydanda görmədiyimiz, heç vaxt həbs olunmayan, heç vaxt hakimiyyətlə bir problemi olmayanlar, bəzən ona mədhiyyə deyib imtiyaz və mandat sahibi olanlar, indi bizə "prinsipiallıq" dərsi keçirlər". Maraqlı məqamlardan biri də budur ki, sanki Ə.Kərimli müxalifətdəki digər siyasi opponentlərinə qarşı ittihamlar yağdırmaqdan həzz almaqla yanaşı, düşünür ki, belə bir addımları ilə onları siyasi düşərgədən kənarlaşdıracaq. Ancaq onun bu ehtimalı, göründüyü kimi, istədiyi nəticəni vermir, əksinə, AXCP sədri daha sərt cavablar almaqla, özünü çətin vəziyyətə salmış olur.

Başqa tərəfdən, daha bir fakt budur ki, ənənəvi düşərgə adlandırılan müxalifət cinahında bundan sonra da qarşıdurmalar və ittihamlar ardıcıl şəkil alacaq. Daha dəqiq desək, bu ittihamlar, onsuz da, heç bir uğur qazana bilməyən düşərgənin məğlub durumda olduğunun göstəricisidir. Sadəcə, həm ittihamlar, həm də ittihamlara məruz qalanlar, bunu nədənsə dərk edə bilmirlər.

***Rövşən RƏSULOV***



**Təhmasib Novruzov**

# Qərbin virus ixracı

***Bizlər on illər boyu SSRİ adlanan qapalı bir imperiyada yaşadığımızdan, əslində, dünyada gedən prosesləri yaxından izləmək imkanından məhrum edilmişlərik. Söhbət yaşı əllidən yuxarı olan və kommunist ideologiyasının təsiri altında böyümüş vətəndaşlardan gedir.***

Dünyanı göz qamaşdıran, real həyatdan uzaq filmlərdə gördüyümüzdən, bizə elə gəlmişdi ki, dünya, xüsusən də, Qərb dünyası cənnəti o dünyadan "perevod" eləyib bu dünyaya, biz isə, hələ də cəhənnəm əzabını yaşamaqdayıq. Ədalət naminə deməyə məcburuq ki, Qərb bir sıra sahələrdə, həqiqətən, çox irəli gedib və kommunizm xülyalı Sovet rejimi bizi indiki inkişafdan çox geri salıb. Danılmaz faktdır ki, Qərb dövlətləri vətəndaşlarının həyat şəraiti, insan hüquq və azadlıqları baxımından, çox irəlidədir. Fəqət, bununla yanaşı, Qərb bətnində bəşəriyyətə nifrət hissini o qədər gücləndirib ki, imkanı olsa, Avropa və Şimali Amerika bütün dünyanı, bütün sivilizasiyanı yıxar. Bu dəfə mövzu Ermənistan- Azərbaycan münaqişəsində Qərbin sərgilədiyi mövqe ilə bağlı deyil. Onsuz da, bu fakt artıq bütün dünyaya məlumdu və Qərb dövlətləri bu mövqeni inkar da etmir. İndiki söhbətimiz Qərbin virus ixracından olacaq. Həm də təkcə bioloji virusdan yox... İkişaf etmiş Qərb dünyası bu gün üç növ virusun ixracı ilə məşğuldur. Birinciyə daxildi bioloji viruslar ki, on illərdi bunun üzərində baş sındırılır. Əvvəl "quşbaş" Qərb alimləri "quş qripi"ni yaradıb, saldılar dünyanın canına. Bunun qarşısının alındığını görüb, donuz kimi zibilliklərdə eşələnə-eşələnə, "donuz qripi" kəşf etdilər. Vicdanlı təbiblər baş sındırıb, onun da qarşısını almağı bacardılar. Bu dəfə "karona"lar işə qarışdı. On illərlə işləyib, elə vitus icad elədilər ki, hələ də dünya qalıb bu virusun əlində. Özlərinin icad və ixrac elədikləri bu virus dünyanı gəzə-gəzə, indi qayıdıb daraşıb özlərinə. Bu yerdə bizim müdrik atalarımızın iki misalı yerinə düşərdi: az qaz, dayaz qaz, özün düşərsən; mıxı yerdən çıxaran at beş yerə vuranda, bir də özünə dəyər!.. Son vaxtlar sosial şəbəkələrdə yayılan məlumatlara inansaq, budəfəki virusu dünyaya humanizmdən "dərs" deyən, "Azadlıq" adası hesab olunan ABŞ icad və ixrac edib. Niyə? Bu, çox geniş mövzudu. Ona baş vursaq, boğulub qalarıq. Bircə faktı vurğulamağa dəyər ki, ötən bir ay ərzində, dünya iqtisadiyyatına on trilyondan artıq zərər vuran, onun da əsas hissəsi Çin, İran, Rusiya və İtaliya kimi ABŞ-a baş əyməyən ölkələrin payına düşürsə, bu virusun icadının və ixracının mahiyyəti aydın olur. Odur ki, bu haqda fikrimizi tamamlayıb, keçək virusun ikinci növünə. Bu virus texniki virusdu. Yəni dünyada texnika, texnologiya inkişaf edir və bu inkişafdan bütün xalqlar bəhrələnir. Qərbin bəzi-bəzi xüsusi dairələri bunun da çarəsini tapdılar. Yəni necə etsinlər ki, elektron texnologiyalarının inkişafında Qərbin diş qıcadığı ölkələr axsasınlar. Beləcə, başladılar müxtəlif növ kompüter virusları icad və ixrac eləməyə. Bir virusun "müalicəsi" tapılan kimi, təzə virus peyda olur kompüterlərdə. Həm də burda çətinlik də çəkmirlər. Atırlar internet portallarından birinə, bir andaca yayılır dünyaya. Nəhayət, üçüncü növ virus. Bu virus mənəvi virusdur. Yəni millətlərin və xalqların mənəviyyatına sarsıntı salan və onları zorla qərbləşdirən virus! Hər kəsə elə gəlir ki, özü mədəniləşmə yolundan sarpıb vəhşiləşməyə yön alan Qərb, millətləri mədəniləşdirmək istəyir. Əslində isə, burda da Qərbin uzaq gələcəyə hesablanmış çox ciddi maraqları var və bu maraqların sonunda "ali" məqsəd - xalqları keçmişindən və kökündən qoparıb, əllərində gəzdirmək planı durur. Ehtiyac olmasa da, qanmayanların yadına salmağı lazım bilirəm ki, kökündən ayrılan istənilən canlı quruyub yox olmağa məhkumdur. Bax, elə bu virus üzərində gecə-gündüz baş sındırmaqda məqsəd də budur: bütün millətlər "qurusun", odda yansın, bir-iki millət qalsın. "Gözəl ideyadır", deyilmi? Bəxtiyar Vahabzadə demiş, "Fitvasını verənin ağlı Ağ Evdən gəlir!" Xülasə, bəşəriyyət viruslar məngənəsində inildəyir. Ondan can qurtarmağın isə bir yolu var: uzaq olmaq. Uzaq olaq ki, virus canımıza asanlıqla darışmasın. Əlbəttə, əgər bacarsaq...

# Mülki obyektlərə hücumların Haaqa Konvensiyası tərəfindən qadağaları

***Mülki obyktlərə hücumun qadağan olunması ümumi formada Haaqa Əsasnaməsinin 23-cü maddəsində öz əksini tapmışdır: hərbi zərurətin hökmən tələb etdiyi hallardan başqa, düşmən əmlakını dağıtmaq və ya zəbt etmək" qadağan olunur. Həmin maddə qarşıdurma şəraitində düşmən əmlakının mühafizəsi üçün nəzərdə tutulmuşdur. O, həmin Əsasnamənin 25-ci maddəsi və "Müharibə zamanı dəniz qüvvələri ilə bombardman haqqında" 1907-ci il IX Haaqa Konvensiyasının 1-ci maddəsi ilə tamalanır.***

Həmin müddəaların heç birində, məhz hansı obyektlərin mühafizə olunduğu müəyyənləşdirilməmişdir. Yuxarıda göstərilən 25-ci və 1-ci maddələrdə söhbət müdafiə olunmayan şəhərlər, yaşayış məntəqələri, ev və binalardan gedir. DC Haaqa Konvensiyasının 2-ci maddəsində göstərilir ki, həmin obyektlərə hücumun qadağan olunması düşmən ordu və donanmasının ehtiyaclarını təmin edən hərbi obyektlərə, hərbi ləvazimat və qurğulara tətbiq olunmur. I Əlavə Protokolun 52-ci maddəsi Haaqa Konvensiyasında öz əksini tapmış normanı bəzi dəqiqləşdirmələrlə nəzərdə tutur. "Mülki obyektlər hücum və repressali obyekti olmamalıdır" ifadəsi mülki obyektlərə mülki şəxslərlə eyni immunitetin tətbiq olunmasını göstərir. Hərbi obyektlər iki xüsusiyyətinə görə fərqləndirilir: 1) onlar öz xüsusiyyətinə, yerinə, təyinatına və istifadəsinə görə hərbi əməliyyatlar üçün bölmək əhəmiyyəti daşıyır;

2) onların, tamamilə və ya qismən dağıdılması, ələ keçirilməsi və ya neytrallaşdırılması həmin məqamda mövcud olan şəraitdə aşkar hərbi üstünlük qazandırır. Birinci kriteriya klassik xarakter daşıyır. Belə ki, Birinci Dünya Müharibəsi zamanı, müstəsna olaraq, silahlı qüvvələri yanacaqla təchiz etmək üçün istifadə olunan tanker "hərbi sursat" kimi qiymətləndirilmişdir. Başqa sözlə, öz mahiyyəti etibarı ilə müstəsna olaraq, mülki və ya hərbi obyektlər mövcud deyildir. Hər şey hərbi-strateji planda bu və ya digər obyektin hərbi əməliyyatların gedişinə göstərdiyi təsirdən asılıdır.

Hərbi obyekt anlayışı hərfi mənada qəbul edilsə yüksək dərəcədə məhdud olur. Əgər hər hansı obyekt düşmənin hərbi qüdrətinə səmərəli töhfə vermirsə, onu prinsip etibarı ilə dağıtmaq olmaz. Məsələn, orta əsrlərin qala divarları əgər hərbi tətbiqini tapmırsa, potensial hərbi xarakterinə görə hücum obyekti ola bilməz. Yaxud müstəsna olaraq, ixrac üçün nəzərdə tutulmuş neft anbarı, eləcə də, mülki obyekt kimi qiymətləndirilir. Küveyt münaqişəsi, həmçinin, İran və İraq arasında münaqişə zamanı neft quyuları, neft emalı zavodları hücum obyektinə çevrilmiş, bunun hüquqa uyğunluğu isə (həmin hücumların olduqca güclü çirklənməyə səbəb olduğu və ətraf mühitə geniş, uzunmüddətli və ciddi ziyan vurması hallarından başqa) heç kim tərəfindən şübhə altına alınmırdı. İraq silahlı qüvvələri tərəfindən Küveyt neft quyularının partladılması tamamilə mənasız idi. Meyroviç haqlı olaraq, qeyd edir ki, "bu dağıntı müttəfiq qüvvələrin yerüstü əməliyyatlarının inkişafına heç cür mane ola, hətta onların inkişafını ləngidə bilməzdi. Bu hərəkətlər qisas xarakteri daşıyırdı. İraq diktatoru bilmirdi ki, həmin hərəkətlərə görə, o özü, yəni İraq xalqı cavab verəcəkdir". Listin işində (Hostages Trial) Nümberq Tribunalı hərbi obyektə I Əlavə Prtokolun 52-ci maddəsində nəzərdə tutulduğundan daha az ciddi yanaşmışdır. Burada obyektin hərbi məqsədlə istifadəsinin potensial imkanına daha çox istinad edilmişdir: "qanuni olması üçün dağıtma qəti hərbi zərurətlə diktə olunmalıdır. Dağıtma bir məqsəd kimi həyata keçirildikdə, beynəlxalq hüquq normalarını pozur. Obyektin dağıdılması ilə düşmən qüvvələrinin üzərində qələbə arasında müəyyən məntiqi əlaqə olmalıdır. Düşmənin istifadə edə biləcəyi dəmiryol, kommunikasiya xətləri və hər hansı başqa əmlakın dağıdılması qanunidir. Hərbi əməliyyatlar aparılması üçün zəruridirsə, hətta şəxsi evlər, kilsələr dağıdıla bilər". Fon Levinskinin (fon Manşteyn) işində Britaniya hərbi prokuroru göstərmişdir ki, dağıntı hesabına üstünlüyün əldə edilməsi ona bəraət qazındırılması üçün kifayət deyildir. Haaqa Əsasnaməsinin 23-cü maddəsinə əsasən, bunun üçün qəti zərurət tələb olunur.

I Əlavə Protokolun 52-ci maddəsinin 3-cü bəndinə əsasən, adətən, mülki məqsədlər üçün nəzərdə tutulan hər hansı obyektdən, məsələn, ibadətgahdan, evdən və ya digər yaşayış binasından və ya məktəbdən hərbi əməliyyatlara səmərəli yardım göstərmək məqsədilə istifadə edildiyi şübhə olunduqda, onlardan bu məqsədlə istifadə edilmədiyi ehtimal olunur. Hərbi obyektlər döyüş əməliyyatları aparılmasına yardım edir və ona görə də, hücuma məruz qala bilər, mülki obyektlər isə, buna yardım etmir və deməli, hücuma məruz qalmamalıdırlar.

Qeyd olunan ümumi normalardan əlavə olaraq, I Əlavə Protokolda konkret obyektlərin mühafizəsi haqqında da bəzi müddəalar öz əksini tapmışdır. Belə ki, 53-cü maddəyə əsasən, "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il 14 may tarixli Haaqa Konvensiyasının və başqa müvafiq beynəlxalq sənədlərin müddəalarına xələl gətirmədən aşağıdakılar qadağandır:

a) xalqların mədəni və ya dini irsini təşkil edən tarixi abidələrə, incəsənət əsərlərinə və ya ibadətgahlara qarşı hər hansı düşmənçilik hərəkətləri;

b) belə obyektlərdən hərbi səyləri dəstəkləmək məqsədilə istifadə olunması;

v) belə obyektlərin qisas obyektinə çevrilməsi.

"Mülki şəxslərin müdafiəsi və hərbi əsirlərin hüquqlarının qorunması haqqında" 30 iyun 1995-ci il tarixli Azərbaycan Respublikası Qanununun 16-cı maddəsinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələri və müvafiq dövlət hakimiyyəti və idarəetmə orqanları münaqişədə iştirak edən qarşı tərəfin eyni hərəkətlərinə cavab olaraq və ya bunlara son qoymaq məqsədilə mülki şəxslər, tibb müəssisələri və onların heyəti, mülki obyektlər, mülki əmlak, tarixi abidələr, incəsənət əsərləri, ibadətgahlar, təbii mühit, təhlükəli qüvvəyə malik qurğular barəsində təzyiq tədbirləri sayılan hər hansı hərəkətlərə yol verməməlidir.

Hərbi əməliyyatlar gedişində son zərurət şəraitində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin məcburən gördüyü tədbirlər bu təzyiq tədbirləri kimi qiymətləndirilə bilməz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər İli" elan edilməsi ilə bağlı 14 yanvar 2020-ci il tarixində Azərbaycan Respublikasının Gənclər Fondunun təşkilatçılığı ilə Bakı Gənclər Mərkəzində gənclər təşkilatları və könüllü hərəkatlarının iştirakı ilə görüş keçirilib. Görüşün keçirilməsində əsas məqsəd 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Sərəncama uyğun olaraq, könüllü fəaliyyətin təşviqi, il ərzində həyata keçirilməsi nəzərdə tutulan layihə və tədbirlər, yeni təşəbbüslər barədə müzakirələrin təşkili olmuşdur. Görüş zamanı iştirakçılar tərəfindən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin könüllülüyün inkişafı, gənclərin könüllü fəaliyyətinə cəlb olunması və ümumilikdə, gənclərin inkişafına xüsusi qayğı və diqqəti, gənclər sahəsində həyata keçirilən siyasətin prioritet olaraq, müəyyən olunması qeyd olunmuşdur. Görüşdə, həmçinin, könüllülüyün region gənclərinin arasında təşviqi, maarifləndirmə xarakterli tədbirlərin təşkili, geniş könüllü şəbəkəsinin formalaşdırılmasına dəstək məqsədilə uzunmüddətli proqramların icrası, könüllülər üçün düşərgələrin təşkili və digər istiqamətlər ilə bağlı təkliflər dinlənilib və geniş müzakirələr aparılıb. Fond tərəfindən keçirilən qrant müsabiqələrində və müsabiqədən kənar maliyyələşdirilən layihələr üçün müəyyən edilən mövzular sırasında, mütəmadi olaraq, könüllülük fəaliyyətinin təşviqi də yer alır. 2019-cu il ərzində Gənclər Fondunun "Gənc Könüllü Proqramı"nın fəaliyyəti genişləndirilmiş, regionlarda təmsilçiliyi artmışdır. Proqram vasitəsi ilə yüzlərlə gənc ilk dəfə könüllü hərəkatına qoşulmuş və nümayəndəliklərin fəaliyyətinin təşkilində aktiv iştirak etmişlər. Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir: "Azərbaycan xalqı əsrlər boyu xeyirxahlıq, fədakarlıq, könüllü və təmənnasız kömək ənənələrini yaşatmışdır.

Könüllülük insanları vahid niyyət ətrafında birləşdirən, vətəndaş, cəmiyyət və dövlətin birgə fəaliyyətinin ən uğurlu formatıdır. Könüllülük həm də vətənpərvərlik məktəbi, öz xalqına, dövlətinə, milli-mənəvi dəyərlərə bağlılıq və xidmət örnəyidir. Könüllülük bir çox fəaliyyət sahələrinə nüfuz edərək ümummilli hərəkata çevrilmiş, ölkəmizin hər bir bölgəsinə, ictimai həyatın müxtəlif sahələrinə yayılaraq, cəmiyyətimizin bütün təbəqələrini əhatə etmiş, gənclərimizin həyat tərzinə çevrilmişdir. "ASAN", "Regional İnkişaf" İctimai Birliyi, "Bir Tələbə" Könüllüləri və digər könüllü hərəkatları yaranmış, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında on minlərlə gənci birləşdirən könüllü qruplar formalaşmışdır. Könüllülərimiz öz kreativliyi, təşəbbüskarlığı, innovativ düşüncə tərzi və müasir dünyagörüşləri ilə qoşulduqları fəaliyyətə yeni nəfəs vermiş, ölkəmizdə "Avroviziya" Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula-1" yarışları, IV İslam Həmrəyliyi Oyunları kimi irimiqyaslı beynəlxalq tədbirlərin həyata keçirilməsində əvəzsiz rol oynamışlar". Azərbaycan Respublikası Prezidentinin Sərəncamında daha sonra deyilir: "Bu il 5 dekabr Beynəlxalq Könüllü Günü ərəfəsində Azərbaycanda ilk dəfə keçirilmiş və bütün könüllüləri əhatə etmiş "Könüllülük Həftəsi" ölkəmizdə könüllülüyün yeni mərhələyə qədəm qoyduğunu və böyük potensiala malik olduğunu nümayiş etdirmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə qərara alıram:

1. 2020-ci il Azərbaycan Respublikasında "Könüllülər İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2020-ci ilin Azərbaycan Respublikasında "Könüllülər İli" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb, Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin."

***Vahid Ömərov,***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

18 mart

Son səhifə

# "Polat Alemdar"la xanımı arasında koronavirus qalmaqalı...

***Türkiyənin məşhur aktyoru Necati Şaşmazla xanımı Nagehan Şaşmaz boşanma ərəfəsində gərgin anlar yaşayıb. "Qafqazinfo" xəbər verir ki, bir müddət əvvəl Ukraynada olan və Türkiyəyə qayıdan aktyor 6 və 1 yaşlı uşaqlarını görmək istəyib.***

Lakin Nagehan Şaşmaz buna icazə verməyib. Səbəb kimi Necatinin 14 günlük karantinə alınmasını heçə sayması və koronavirusla mübarizədə səhlənkarlıq etməsini göstərib. Həmçinin o, uşaqların immunitetinin aşağı olduğunu, narahat olduqları üçün ataları ilə görüşə icazə vermədiyini qeyd edib. Amma buna məhəl qoymayan N. Şaşmaz polislərlə birgə uşaqları evdən çıxarıb.

Nagehanın vəkili Nazlı Kaya mətbuata açıqlama verib: "Necati Şaşmaz qısa müddət əvvəl xaricdə olub və koronavirusa yoluxma təhlükəsi var. Səhiyyə Nazirliyi xaricdən qayıdanların 14 gün karantində olacağını qeyd edib. Valideynlərin ortaq himayəsində olan uşaqlar isə xəstədir. Müvəkkilim aktyorun koronavirus testinin nəticələrindən sonra uşaqlarla görüşdürəcəyini bildirib. Lakin N. Şaşmaz bunlara məhəl qoymayıb, icra məmurları ilə birgə uşaqları məcbur evdən aparıb".

# Uşaqların düzgün qidalanmaması onlarda artıq çəki yaradır



***Bəzi valideynlər övladlarının bir az kök olmasından sevinsə də, bu hal sonralar müəyyən problemlərə səbəb ola bilər. Mütəxəssislər bildirilər ki, körpələr təxminən doqquz aya qədər çəkini tez artırır. Lakin bu hal normal hesab edildiyindən ciddi problemlərə səbəb olmur. Zamanla uşaq aktiv hərəkət etməyə və arıqlamağa başlayır. Lakin bəzi hallarda yaş artdıqca uşaqların artıq çəkisi valideynləri düşünməyə məcbur edir.***

Mərkəzi Gömrük Hospitalının həkim-pediatrı Təranə Göyüşova AZƏRTAC-a deyib: "Bir sıra vitamin çatışmazlıqları bəzi uşaqlarda çəkidən geri qalmağa, bəzilərində isə çəki artımına səbəb olur. Məsələn, D vitamini çatışmazlığı olan uşaqlarda normal çəkidən geri qalma halları olur. Lakin həmin əlaməti olan bəzi uşaqlar var ki, onlarda doyma hissi olmur".

Vitamin çatışmazlığından başqa hormonal faktorlar problemləri artıq çəkinin səbəblərindən biri ola bilər. Məsələn, tiroid vəzi, böyrəküstü vəzi xəstəlikləri və s. Buna görə də artıq çəki olan hər uşağın mütləq bir həkim-pediatr tərəfindən dəyərləndirilməsi lazımdır. Mütəxəssislər uşaqların artıq çəki almaması üçün bəzi məqamlara diqqət yetirməyi məsləhət görürlər. Onlar yemək vaxtının hər gün eyni saatda olması və qidalanma amilini xüsusi qeyd edirlər. Uşaqların sevimli məşğuliyyətlərinin olmasına da diqqət yetirmək vacibdir. Həmin məşğuliyyətlər fiziki aktivliklə və uşağın lazımi qədər hərəkətdə olması ilə müşayiət edilməlidir.

Həkim-pediatr deyib: "Uşaqlar üçün düzgün qidalanma rejimi təyin olunmalıdır. Məsələn, 1 yaşında uşaqların gündə dörd dəfə qidalanması kifayətdir, lakin axşam saat 8-dən sonra yemək və su qəbulu mütləq azaldılmalıdır". Mütəxəssislər, həmçinin pəhriz saxlayarkən diqqətli olmağı, bu zaman hər bir uşağa fərdi yanaşaraq onların boy və yaşını nəzərə almağı tövsiyə edirlər. Unutmaq olmaz ki, inkişaf edən uşaq orqanizmi müalicəyə tez tabe olur. Ona görə də uşaqları vaxtında artıq çəkidən azad etməyə çalışmaq lazımdır.

# Parisdə evdən bayıra çıxanlar cərimələnəcək

***Parisdə hər hansı bir iş üçün evdən çıxan şəxslər (piyada və ya avtomobillə) polisə rəsmi arayış təqdim etməlidirlər. Yalnız xüsusi icazə sənədləri olan şəxslər şəhərə çıxa bilərlər. AZƏRTAC xəbər verir ki, bu sözləri Fransanın Daxili İşlər naziri Kristof Kastaner ölkə prezidentinin çıxışından sonra ölkədə tətbiq olunacaq yeni qaydaları açıqlayarkən söyləyib.***

Qeyd edib ki, koronavirus pandemiyasına qarşı ölkədə xüsusi nəzarət sistemi həyata keçiriləcək və bu məqsədlə 100 min polis və jandarm səfərbər olunacaq. Qaydalara riayət etməyənlər və evdən əsaslandırılmamış şəkildə çıxanlar 38 avrodan 135 avroya qədər cərimə olunacaqlar.



# Qazaxda "Mercedes" markalı yük avtomobili yanıb

Qazax rayonunun Daş Salahlı kəndində "Mercedes" markalı yük avtomobilində yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən bildiriblər ki, hadisə nəticəsində avtomobilin kabinə və mühərrik hissəsi, eləcə də üç təkəri yanıb. Avtomobilin qalan hissəsi yanğından mühafizə olunub. Alov yanğından mühafizə bölmələri tərəfindən söndürülüb.





# ABŞ-da benzinin qiyməti "su qiymətinədir"

ABŞ-da benzinin qiyməti kəskin ucuzlaşıb. Xarici KİV-lərin yaydıqları məlumatda deyilir ki, hökumətin səyahətləri qadağan etməklə insanların hərəkətini məhdudlaşdırması nəticəsində yanacaq istehlakı kəskin azalıb. Belə ki, ABŞ-da benzinin qiyməti 2005-ci ildən bəri ilk dəfə kəskin şəkildə aşağı düşüb.

# Dünya üzrə koronavirusa yoluxanların sayı 182 742 nəfərə çatdı

Dünya Səhiyyə Təşkilatı yeni növ koronavirusla bağlı (COVID-19) martın 17-nə olan vəziyyəti açıqlayıb. Belə ki, 2019-cu ilin dekabrında Çində baş qaldırmış yeni koronavirus artıq 162 ölkəyə yayılıb. Dünya üzrə koronavirusa 182 742 nəfər yoluxub (290 yeni yoluxma), 7 174 nəfər ölüb, 79 883 nəfər isə sağalıb (1 300 yeni sağalanlar).

# Daha bir Hollivud ulduzu koronavirusa yoluxdu

Hollivud ulduzu İdris Elba koronavirusa yoluxub. Bu barədə aktyor öz Tvitter səhifəsində yazıb. "Bu gün səhər Covid-19-un test analizindən pozitiv nəticə çıxdı. Özümü yaxşı hiss edirəm, hələ ki məndə heç bir simptom yoxdur. Karantindəyəm", - deyə aktyor qeyd edib.

**Baş redaktor:**
Bəhruz Quliyev

**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**